

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 09 - sentyabr 2019



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 09 - sentyabr 2019**

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**



BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**





**Qaynar xətt 539-76-75**


# Mündəricat



## RƏSMİ MƏLUMAT


Prezident İlham Əliyev paytaxtda yenidən qurulan məktəblərdə yaradılan şəraitlə tanış olub ............................4




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ədliyyə Nazirliyində Xalq rəssamı Tahir Salahov ilə görüş ............................................................6
Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbul olunan Hərbi tibb fakültəsinin məzunları ilə görüş ............................................................8
Azərbaycan və Çin arasında ədliyyə sahəsində əməkdaşlıq genişlənir ............................................................9
Avropa Şurasının rəhbər şəxsləri ilə Ədliyyə Nazirliyində görüşlər ............................................10
Ədliyyə naziri və nazir müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər ............................12
Məhkəmə-Hüquq Şurasının iclası ...................................14
Hakimliyə namizədlərlə test üsulu ilə və yazılı imtahan keçirilib ............................................................15
Bakıda "Şəffaf və səmərəli ədalət mühakiməsi - innovativ nümunələr" mövzusunda görüş keçirilib .....16
Naxçıvan Şəhər Məhkəməsində "Elektron məhkəmə" informasiya sisteminin təqdimatı olub ..........................17
Alternativ icra mexanizmlərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübə öyrənilir ...................................18
Ədliyyə Nazirliyinin nümayəndə heyəti Şanxay Əməkdaşlıq Təşkilatının Forumunda iştirak edib ......20
Ailə institutunun inkişafına yönələn tədbirlər davam etdirilir ............................................................21
Ədliyyə Nazirliyi tərəfindən vətəndaş cəmiyyəti üçün təlimlər keçirilib ............................................22
Ədliyyə Nazirliyində beynəlxalq görüşlər .......................22
Ədliyyə Akademiyasında.................................................24

## GƏZİNTİ

Ədliyyə işçilərinin Quba və Xaçmaz rayonlarında gəzinti-istirahət turu təşkil olunub ....29

## QƏRARLAR

Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 2019-cu il 22 fevral tarixli Qərarı (Şabran Rayon Məhkəməsinin sədri Çingiz Əmir oğlu İsgəndərov haqqında) ....31
Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 2019-cu il 22 fevral tarixli Qərarı (Sumqayıt Şəhər Məhkəməsinin hakimi İlyas Musa oğlu Mahmudov haqqında) ....32
Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 2019-cu il 22 fevral tarixli Qərarı (Sumqayıt Şəhər Məhkəməsinin sabiq hakimi (hazırda Quba Rayon Məhkəməsinin hakimi) İlqar Aslan oğlu Məmmədov haqqında) ....36
Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 2019-cu il 22 fevral tarixli Qərarı (Şabran Rayon Məhkəməsinin sabiq hakimi, hazırda Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi Teymur Əhməd oğlu Qurbanov haqqında) ....38
Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 2019-cu il 22 fevral tarixli Qərarı (Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin sabiq hakimi (hazırda Abşeron Rayon Məhkəməsinin hakimi) Vaqif İsgəndər oğlu Həsənov haqqında) ....41
Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 2019-cu il 22 fevral tarixli Qərarı (Sumqayıt Şəhər Məhkəməsinin sabiq hakimi (hazırda Xaçmaz Rayon Məhkəməsinin hakimi) Vladimir Yefimoviç Ruvinov haqqında) ....42
Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 2019-cu il 25 fevral tarixli Qərarı (Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin hakimi Yaşar Xanoğlan oğlu Həşimov haqqında) ....44
Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 2019-cu il 25 fevral tarixli Qərarı (Abşeron Rayon Məhkəməsinin hakimi Quliyeva Sevinc Məhəmməd qızı haqqında) ....47
Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 2019-cu il 25 fevral tarixli Qərarı (Mingəçevir şəhər Məhkəməsinin hakimi Ələkbər Məmmədtağı oğlu Hüseynov haqqında) ....48

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb
səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1843 Tiraj:1100 ədəd

# Prezident İlham Əliyev paytaxtda yenidən qurulan məktəblərdə yaradılan şəraitlə tanış olub




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Fərmanına əsasən sentyabrın 15-i ölkəmizdə "Bilik günü" kimi qeyd olunur.**

Prezident İlham Əliyevin təhsilə diqqət və qayğısı, Heydər Əliyev Fondunun müvafiq istiqamətdə həyata keçirdiyi layihələr nəticəsində son illər Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub.



Bu gün təhsil sisteminin bütün pilləleri üzrə dövlət proqramları uğurla həyata keçirilir.

Hazırda respublikada 322 ibtidai məktəb, 3 min 307 tam orta məktəb, 795 ümumi orta məktəb, 16 xüsusi tipli ümumi orta məktəb və 7 əyani-qiyabi (axşam) tam orta məktəb, 59 məktəb-lisey, 49 lisey, 15 gimnaziya və 14 inteqrasiya təlimli internat tipli gimnaziya olmaqla, ümumilikdə 4 min 447 məktəb fəaliyyət göstərir.

Təhsil infrastrukturunun müasirləşdirilməsi çərçivəsində yeni tədris ilinin əvvəlində Prezident İlham Əliyev və ölkəmizin Birinci-vitse prezidenti Mehriban xanım Əliyeva paytaxt Bakının

bir neçə məktəbin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olub, yeni tədris kompleksinin açılışında iştirak ediblər.



Paytaxtın Suraxanı rayonundakı 101 nömrəli orta məktəbdə aparılan təmir-tikinti və yenidənqurmadan sonra yaradılan şəraitlə tanışlıq zamanı bildirilib ki, məktəbdə 35 sinif otağı, informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir.

Məktəbin həyətində geniş abadlıq və quruculuq işləri görülüb. Həyətdə futbol və voleybol meydançaları yaradılıb.

Dövlətimizin başçısının Suraxanı rayonunda tanış olduğu daha bir məktəbin - 208 nömrəli orta məktəbin binası da əsaslı şəkildə yenidən qurulub. 360 şagird yerlik yeni məktəb binası müasirliyi ilə seçilir. Burada müxtəlif fənn otaqları bütün zəruri inventarla təchiz olunub. Bir sözlə, təhsil müəssisəsində şagirdlərin elmin sirlərinə dərindən yiyələnmələri, müəllimlərin isə pedaqoji fəaliyyətlə yüksək səviyyədə məşğul olmaları üçün hərtərəfli imkanlar var.

Binəqədi rayonundakı 300 nömrəli tam orta məktəbin 960 şagird yerlik yeni tədris kompleksinin açılışında iştirak edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin idman zalında, hərbi otaqda, ekosinifdə, informatika otağında, kimya kabinetində, ayrı-ayrı sinif otaqlarında və yeməkxanada yaradılan şəraitlə tanış olub, müəllimlər və şagirdlərlə söhbət edib, onlara yeni tədris ilində uğurlar arzulayıblar.



Hər bir dövlətin inkişafı və gələcəyi onun təhsil səviyyəsi ilə bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir. Azərbaycan bu baxımdan hazırda dünyada lider ölkələrdəndir. Heç bir ölkədə bu cür qısa müddət ərzində bu sayda məktəb tikilməyib. Bu istiqamətdə atılan addımlara Heydər Əliyev Fondunun töhfələri də olduqca mühümdür. Fondun bu sahədə həyata keçirdiyi layihələrin coğrafiyası və miqyası ilbəil daha da genişlənir.

Məktəbdə yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva müəllimlər və valideynlərlə görüşüb onları təbrik ediblər.

# Ədliyyə Nazirliyində Xalq rəssamı Tahir Salahov ilə görüş







**Sovet İttifaqının və Azərbaycanın Xalq rəssamı, SSRİ Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahov parlaq ənənələrə malik müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindəndir. Onun mövzu və janr zənginliyi, bədii forma əlvanlığı və estetik kamilliyi ilə seçilən rəsm əsərləri milli sənət xəzinəmizin qızıl fonduna daxildir. Yaratdığı tablolardan ibarət sərgilər rəssama ölkəmizdə və onun hüdudlarından uzaqlarda böyük şöhrət qazandırıb.**

Dahi fırça ustasının anadan olmasının 90 illik yubileyi münasibətilə keçirilən silsilə tədbirlər, o cümlədən şəxsi kolleksiyasından və digər ekspozisiyalardan ibarət təşkil olunmuş rəsm sərgisi xüsusilə yaddaqalan olub.

Ədliyyə Nazirliyi tərəfindən belə ziyalılarla, görkəmli mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri ilə mütəmadi görüşlər keçirilir, onların iştirakı ilə tədbirlər təşkil olunur.

Sentyabrın 19-da Xalq rəssamı Tahir Salahov Ədliyyə Nazirliyinin qonağı olub, böyük



sənətkarla görüş keçirilib.

Ədliyyə naziri Fikrət Məmmədov görkəmli rəssamı mehribanlıqla və səmimiyyətlə salamlayıb, onun zəngin yaradıcılığından, müasir təsviri incəsənətin inkişafında rolundan və dəyərli töhfələrindən bəhs edib, bir çox ölkələrin rəssamlıq akademiyalarının üzvü olan T.Salahovun mühüm xidmətlərinin daim yüksək qiymətləndirilərək çoxsaylı beynəlxalq mükafatlara və fəxri adlara, ölkəmizin ən ali təltiflərinə - "Heydər Əliyev" ordeninə, Heydər Əliyev mükafatına, "İstiqlal" və 1-ci dərəcəli "Əmək" ordenlərinə layiq görüldüyünü vurğulayıb.

Bildirilib ki, Tahir Salahovun 90 illik yubileyi ölkəmizdə geniş qeyd olunub, bu münasibətlə təşkil olunmuş sərgidə dövlət başçısı cənab İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı dahi rəssamın yaradıcılığına böyük ehtiramın və diqqətin təzahürü olub. Çoxsaylı ədliyyə işçilərinin də həmin möhtəşəm sərgi ilə tanışlığı unudulmaz zəngin təəssürat bağışlayıb.

Həmçinin Tahir Salahovun ecazkar və monumental səhnə tərtibatçılığı ilə bəstəkar Fikrət Əmirovun "Kreml baleti" teatrının bu il Bakıda təqdim etdiyi "Min bir gecə" baletinin böyük maraqla izlənildiyi bildirilib. Çoxsaylı məşhur əsərləri ilə yanaşı, rəssam tərəfindən bəstəkarın hələ 50 il əvvəl yaradılmış portreti heyranlıqla yada salınıb.

Nazir görkəmli rəssamın Ədliyyə Nazirliyi ilə sıx və isti münasibətlərini, müasir ədliyyənin rəmzlərinin təsvirlərinin hazırlanarkən verdiyi dəyərli töhfələri qeyd edib.

Dövlətimizin hər zaman incəsənətə və sənət adamlarına xüsusi qayğı ilə yanaşdığını söyləyən Xalq rəssamı Tahir Salahov ümummilli lider Heydər Əliyev ilə şəxsi münasibətini, çox səmimi və möhkəm dostluğunu tərənnüm etdirən xatirələrini bölüşüb, Ulu Öndərlə həm sovet dönəmində, həm də müstəqillik illərində çoxsaylı görüşlərini xatırladıb, müxtəlif illərdə çəkdiyi rəsmlərindən, xalça üzərindəki əsərlərindən söz açıb, böyük ustalıqla yaratdığı dahi şəxsiyyət Heydər Əliyev portretinin reproduksiyasını Ədliyyə Nazirliyinə hədiyyə edib.

Nazirliyin rəhbər işçilərinin iştirak etdiyi tədbirdə ədliyyə orqanları ilə səmərəli əməkdaşlığa görə böyük sənətkara yubiley medalı, həmçinin xatirə olaraq onunla bağlı tarixi arxiv sənədləri təqdim olunub.

Tahir Salahov həmçinin, Ədliyyə tarixi muzeyi ilə tanış olub və Fəxri qonaqlar kitabına ürək sözlərini yazaraq nazirliyin bütün əməkdaşlarına səmimi qəlbdən minnətdarlığını və xalqımızın rifahı naminə nazirliyin fəaliyyətinə yüksək ehtiramını ifadə edib, sadə insanlara göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirib.

Sonda xatirə şəkli çəkdirilib.





Дорогой - Фикрет
Мамедов -
сегодня выражаю
Вам, всем сотрудникам
Министерства Юстиции
Азербайджана свою
сердечную благодарность,
высокое уважение
к Вашим Трудам
связанных с жизнью
нашего народа!
Спасибо Вам -
за четкость, любовь
к простым людям!
С большим
уважением
Ваш Т. Салахов.
19.09.2019.

# Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbul olunan Hərbi tibb fakültəsinin məzunları ilə görüş







**Ölkə Prezidenti cənab İlham Əliyevin ədliyyə orqanlarının inkişafı, o cümlədən penitensiar sistemin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq məhkumların və təqsirləndirilən şəxslərin sağlamlığının mühafizəsi, onlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi üzrə məqsədyönlü tədbirlər davam etdirilir. Bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıqda müsbət nəticələrə nail olunub və artıq bir çox dövlətlər Azərbaycan təcrübəsindən faydalanırlar.**

Penitensiar sahədə fəaliyyətin müasirləşdirilməsi, həmçinin ədliyyə işçilərinin tibbi təminatının gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyində yüksək ixtisaslı həkimlərə ehtiyac nəzərə alınaraq respublika Nazirlər Kabinetinin sərəncamına əsasən Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə 2009-cu ildən etibarən Nazirlik üçün tələbə qəbulu həyata keçirilir. Nazirlik tərəfindən həmin tələbələrlə təhsil müddətində mütəmadi əlaqə saxlanılıb, onlara penitensiar və tibb xidmətlərində qulluq keçmənin xüsusiyyətləri aşılanıb, bu sahədə təcrübə keçməklə peşə vərdişlərinə yiyələnmələrinə hər cür şərait yaradılıb.

Ədliyyə Nazirliyi üçün hazırlanan ATU-nun Hərbi tibb fakültəsinin xüsusi təhsil almış builki 15 məzunu Nazirliyin sərəncamına göndərilib.

Sentyabrın 3-də Ədliyyə naziri Fikrət Məmmədov ədliyyə orqanlarına qulluğa qəbul edilən gənc həkimləri qəbul edib.

Tədbirdən öncə Fəxri Xiyabanda müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edən gənclər, dahi şəxsiyyətin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini ehtiramla yad ediblər.

Nazirlikdə keçirilmiş tədbirdə çıxış edən nazir F.Məmmədov Ulu Öndərin siyasi kursunu layiqincə davam və inkişaf

etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqisini, dünyada ən islahatçı dövlətlərdən olduğunu və bütün sahələrdə əldə olunan yüksək nailiyyətləri vurğulayıb, Azərbaycan ədliyyəsinin inkişafı və müasirləşdirilməsi üzrə görülən işlər barədə məlumat verib, dövlətimizin gənclərin hərtərəfli inkişafına yüksək qayğısından bəhs edib.

Bildirib ki, ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq ədliyyə orqanlarında gənclər geniş təmsil olunurlar. Onların işlə təminatı daim diqqətdə saxlanılaraq müasir İKT-lər tətbiq olunmaqla və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə şəffaf seçimlər əsasında qulluğa qəbul edilirlər. Hazırda ədliyyə sistemində çalışan işçilərin təxminən yarısını gənclər təşkil edir və onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Eyni zamanda, ölkədə geniş vüsət alan könüllülük hərəkatının ədliyyə sahəsində təşviq olunaraq hazırda 600-dən çox ədliyyə könüllüsünün fəaliyyətə cəlb edildiyi bildirilib.

Penitensiar sistemdə və tibb xidmətində aparılan islahatlardan geniş söhbət açan nazir məzunlara dövlətçiliyə sədaqətlə xidmət etmələri, insanlara qayğılı münasibət göstərmələri, xidməti vəzifələrini layiqincə yerinə yetirmələri, etik davranış qaydalarına dönmədən əməl olunması barədə tapşırıqlarını verib, uğurlu fəaliyyət arzulayıb.

Çıxış edən məzunlar müstəqil Azərbaycanımızın gələcək tərəqqisi naminə əzmlə çalışacaqlarını, dövlət gənclər siyasətini uğurla davam etdirən ölkə başçısına layiqli yardımçı olacaqlarını vurğulayaraq, vəzifə borclarını məsuliyyətlə yerinə yetirəcəklərinə, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Yeni təyinat alan hakim-zabitlər Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər.

# Azərbaycan və Çin arasında ədliyyə sahəsində əməkdaşlıq genişlənir

**Azərbaycan Respublikası və Çin Xalq Respublikası Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Saziş imzalanaraq səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir. Əlaqələrin genişləndirilməsi, ədliyyə və məhkəmə islahatları, habelə antikorrupsiya təcrübəsi ilə tanış olmaq məqsədilə sentyabrın 16-17-də Çinin Ədliyyə Nazirliyinin baş müşaviri - nazir müavini Pu Zengfan başçılıq etdiyi nümayəndə heyəti ilə ölkəmizdə səfərdə olub.**

Qonaqlar əvvəlcə Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət ediblər.

Ədliyyə naziri Fikrət Məmmədov Çinin nümayəndə heyəti ilə görüşüb.

Ölkələrimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərini qeyd edən nazir bu əlaqələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının sədri Si Cinpinin xüsusi rolunu vurğulayıb, iki ölkə arasında hüquqi əlaqələrdən bəhs edərək, 2015-ci ildə dövlətimizin başçısının Çinə dövlət səfəri zamanı bu sahədə mühüm dövlətlərarası müqavilənin imzalandığını, nümayəndə heyətlərinin mübadiləsini qeyd edib, əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirib.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən qonaq xalqlarımız arasında qədim tarixə malik dostluq əlaqələrinin olduğunu, ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən ədliyyə orqanları arasında inkişafını qeyd edib, qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə hazır olduğunu söyləyib, Çinin ədliyyə nazirinin salamlarını çatdırıb.

Həmin gün qonaqların ədliyyə nazirinin müavini Azər Cəfərov ilə görüşü olub, geniş tərkibdə Ədliyyə nazirliklərinin nümayəndə heyətləri tərəfindən iki ölkənin məhkəmə-hüquq sistemi, bu sahədə həyata keçirilən islahatlar barədə ətraflı fikir mübadiləsi aparılıb. P.Zengfan Azərbaycanın Ədliyyə Nazirliyinin ayrı-ayrı is-

tiqamətləri üzrə, o cümlədən qanunvericilik, e-xidmət, qulluğa qəbul, beynəlxalq əməkdaşlıq və digər sahələrdə fəaliyyətinə böyük maraq göstərib, yaxşı təcrübələrin mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Baş müşavir - nazir müavini həmçinin, dövlətimizin başçısının qəti siyasi iradəsi ilə korrupsiyaya qarşı mübarizədə aparılan qanunvericilik, institusional və praktiki tədbirlər barədə məlumatlandırılıb, səmərəli beynəlxalq antikorrupsiya əməkdaşlığının həyata keçirildiyi, bu sahədə Azərbaycanın dəstəyi ilə yaradılmış və təsis konfransı Çində keçirilmiş, ölkəmizin ədliyyə nazirinin vitse-prezidenti olduğu Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının mühüm rolu vurğulanıb.



Qonaqlar nazirlikdə Ədliyyə tarixi Muzeyi ilə tanış olublar.

Səfər zamanı Çinin nümayəndə heyətinin Dövlət İmtahan Mərkəzində, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə baş idarəsində görüşləri olub. Qonaqlar həmçinin, müasir məhkəmə infrastrukturu və elektron məhkəmə sisteminin tətbiqi, eləcə də Azərbaycan brendi olan və ədliyyənin müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzlərinin vətəndaş məmnunluğu doğuran və korrupsiyaya qarşı mübarizədə mühüm fəaliyyəti ilə tanış olublar.

# Avropa Şurasının rəhbər şəxsləri ilə Ədliyyə Nazirliyində görüşlər

**Sentyabrın 12-də ədliyyə naziri Fikrət Məmmədov Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri Xristos Cakoumoulosun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə nazir Azərbaycanın keçdiyi böyük inkişaf yolundan, beynəlxalq təşkilatlarla, xüsusilə Avropa Şurası ilə sıx əməkdaşlıqdan bəhs edib, qurumun 70 illiyi münasibətilə təbrikini ifadə edib, ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları barədə məlumat verərək bu sahədə tədbirlərin ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı ilə yeni mərhələdə davam etdirildiyini vurğulayıb.

Söhbət zamanı Avropa Şurası ilə əməkdaşlıqda qanunvericiliyin təkmilləşdirilməsi, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanlarının yaradılması, infrastrukturun müasirləşdirilməsi və elektron məhkəmənin tətbiqi, yeni ixtisaslaşmış kommersiya məhkəmələrinin yaradılması, hakimlərin Avropa Şurası tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçimi və tədrisi, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin öyrənilməsi və həmin Məhkəməyə təlim səfərlərinin təşkili təqdir olunub.

Ölkəmizə səfərindən xoş təəssüratını bölüşən X.Cakoumoulos Avropa Şurasının Azərbaycanla hələ üzv olmamışdan əvvəl əməkdaşlıq




münasibətlərinin qurulduğunu, bu əlaqələrin inkişafında Ədliyyə Nazirliyinin əsas tərəfdaşlardan olduğunu vurğulayıb, nazirliklə hüquqşünasların tədrisi, o cümlədən insan hüquqları üzrə təlimçilərin hazırlanması sahəsində birgə həyata keçirilən layihələrin çox yaxşı nəticələr verdiyini bildirib.

Qonaq, həmçinin ədliyyə sahəsindəki innovasiyalar, penitensiar sistemdə aparılan islahatlar barədə məlumatlandırılıb, cəza siyasətinin humanistləşdirilməsinə dair dövlət başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən Cinayət Məcəlləsinə əsaslı dəyişikliklər edilərək bir sıra əməllərin dekriminallaşdırıldığı, həbsə alternativ qətimkan tədbirlərinin və azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların tətbiqinin genişləndirildiyi, probasiya xidmətinin yaradılaraq elektron nəzarət vasitələrinin geniş tətbiqi, humanistləşdirmə tədbirlərinin bu gün də davam etdirildiyi bildirilib.

Baş Direktor həyata keçirilən islahatları və yenilikləri maraqla qarşılayıb, azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının təmin olunması, onların saxlanma şəraitinin yaxşılaşdırılması istiqamətində irəliyə doğru nəhəng addımların atıldığını vurğulayıb, Azərbaycan tərəfinin İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) hesabatlarını dərc etməsini alqışlayıb.

Bildirib ki, ədliyyə və məhkəmə sistemində mövcud tərəqqi, Azərbaycan Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli müstəsna əhəmiyyətə malik Fərmanında müəyyən edilmiş prioritetlər, eləcə də ölkəmizin Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyasında yüksək təmsilçiliyi bu sahədə əməkdaşlığın dərinləşdirilməsinə geniş imkanlar açır. X.Cakoumoulos həyata keçirilən islahatlara bundan sonra da dəstək göstərilməsinə hazır olduğunu söyləyib.

Tədbir zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələri, Ermənistanın davam edən işğalçılıq siyasəti qonağın xüsusilə diqqətinə çatdırılıb, Ermənistan rəhbərliyinin açıq-aşkar müharibəyə təhrik edən təxribatçı və aqressiv populist bəyanatlarının narahatlıq doğurduğu vurğulanaraq, beynəlxalq ictimaiyyətin bu məsələyə ciddi reaksiya verməsinin zəruriliyi bildirilib.

Görüşdə həmçinin, qanunvericiliyin təkmilləşdirilməsi, hakimlərin və digər hüquqşünasların tədrisi, Avropa Məhkəməsinin qərarlarının icrası, vəkilliyin inkişafı, mediasiya, alternativ ekspertiza və özəl icra mexanizmlərinin tətbiqi və digər maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.





**Sentyabrın 5-də Ədliyyə nazirinin müavini Toğrul Musayev Azərbaycanda səfərdə olan Avropa Şurası (AŞ) Parlament Assambleyasının Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin sədri, İslandiya Parlamentinin üzvü xanım Thorhildur Sunna Evarsdottirin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə insan hüquqlarının hərtərəfli təmin olunması, hakimlərin müstəqilliyi, Məhkəmə-Hüquq Şurasının fəaliyyəti, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icrası, vəkillik təsisatının islahatı və digər maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə insan hüquqlarının etibarlı qorunması və məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsi üzrə həyata keçirilən məqsədyönlü tədbirlərdən bəhs edən nazir müavini bu sahədə islahatların dərinləşdirilməsinə dair dövlət başçısının 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyətini vurğulayıb. Həmçinin Məhkəmə-Hüquq Şurasının müstəqil özünüidarə fəaliyyəti, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçimi və tədrisi, o cümlədən Avropa Konvensiyasının presedentlərinin öyrənilməsi və Avropa Məhkəməsinə tədris səfərlərinin təşkili barədə məlumat verib, cəza siyasətinin humanistləşdirilməsi üzrə görülən genişmiqyaslı işlərdən danışıb.

Qonağın diqqəti xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə cəlb olunaraq Ermənistan tərəfindən torpaqlarımızın işğalı nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan çox soydaşımızın hüquqlarının pozulduğu vurğulanıb. Nəzərə çatdırılıb ki, Ermənistan rəhbərliyinin reallıqdan tamamilə uzaq populist bəyanatları münaqişənin həlli üzrə illərdir ki, aparılan sülh danışıqları prosesinə böyük zərbədir.

Xanım Thorhildur Sunna Evarsdottir Azərbaycana növbəti səfərindən məmnunluğunu, müzakirə olunan məsələlərlə bağlı ətraflı məlumata görə minnətdarlığını ifadə edib.

Tədbirdə AŞ-nın Bakı Ofisinin rəhbəri Zoltan Hernyeş iştirak edib.

# Ədliyyə naziri və nazir müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər

Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq sentyabrın 20-də Ədliyyə naziri Fikrət Məmmədov Qəbələ rayon Mədəniyyət Mərkəzində Qəbələ, İsmayıllı, Oğuz rayon-

larda yaşayan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Eyni zamanda, Ədliyyə nazirinin müavinləri Vilayət Zahirov sentyabrın 12-də İmişli rayonunda, Azər Cəfərov sentyabrın 27-də Lənkəran rayonunda vətəndaşların qəbulunu keçiriblər.

Qəbullardan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbullar zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı, həmçinin yerli ədliyyə orqanlarının və məhkəmənin işi, habelə Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi Qəbələ "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanışlıq olub.

Ədliyyə naziri Qəbələyə səfəri çərçivəsində ədliyyə işçiləri və hakimlər ilə müşavirə keçirib. Müşavirədə ədliyyə və məhkəmə fəaliyyətinin dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşdirilməsi ilə bağlı görülən işlərə toxunulub, ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyəti vurğulanıb, qarşıda duran vəzifələr müzakirə olunub, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin edilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tövsiyə və tapşırıqlar verilib.







# Məhkəmə-Hüquq Şurasının iclası

**Sentyabrın 17-də Məhkəmə-Hüquq Şurasının iclası keçirilib.**

İclasda çıxış edən Şuranın sədri, Ədliyyə naziri Fikrət Məmmədov dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı mütərəqqi tədbirləri vurğulayıb, hüquqi sahədə islahatlara əsaslı təkan verən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanın icrası üzrə ardıcıl işlərə toxunub.

Qeyd edilib ki, hakimlərin həddsiz yüksək olan iş yükünün azaldılması, süründürməçilik hallarının qarşısının alınması, işlərə vaxtında və daha keyfiyyətlə baxılması məqsədilə Fərmana uyğun olaraq hakim ştatlarının sayı 200 vahid artırılıb, məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə yeni ixtisaslaşmış məhkəmələr yaradılıb.

Bununla əlaqədar Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin seçilməsi Qaydaları təkmilləşdirilərək namizədlərin seçimində çeviklik artırılıb, onlar üçün daha şəffaf və əlverişli şərait yaradılıb. İyul ayının 25-dən isə Hakimlərin Seçki Komitəsi tərəfindən növbəti müsabiqə elan olunub.




İclasda hakimliyə namizədlərin seçilməsi prosesi ilə bağlı Komitənin məlumatı dinlənilib. Qeyd olunub ki, sənədlərini təqdim etmiş 206 nəfər hakimliyə namizədlə sentyabrın 15-də Dövlət İmtahan Mərkəzində test imtahanı keçirilib. Suallar müasir texnologiyalar tətbiq edilməklə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırılıb və 158 nəfər müvəffəqiyyət qazanaraq növbəti mərhələyə buraxılıb. Hər bir namizədin nəticələri ona dərhal elan olunub və müvafiq arayış təqdim edilib. İmtahan "on-line" rejimində internetlə birbaşa yayımlanıb, çoxsaylı yerli vətəndaş cəmiyyəti və beynəlxalq təşkilat nümayəndələri tərəfindən izlənilərək şəffaf prosedur kimi yüksək dəyərləndirib.

İclasda müsabiqənin növbəti mərhələləri ilə bağlı təşkilati məsələlərə toxunulub, sənəd qəbulunun bundan sonra da davam edəcəyi vurğulanıb. İmtahanların tam şəffaf və obyektiv keçirilməsinin, ən layiqli hüquqşünasların seçilərək hakim vəzifələrinə təyin edilməsinin vacibliyi qeyd olunub.

Həmçinin, iclasda Şura tərəfindən hakimlər barədə başlanılmış intizam icraatlarına baxılaraq qanunvericiliyin tələblərinin kobud pozulmasına və korrupsiyaya şərait yaradan, süründürməçiliyə və digər neqativ hallara yol verdiklərinə görə 6 hakim intizam məsuliyyətinə cəlb edilib, o cümlədən Bərdə rayon məhkəməsinin hakimi Seyfəli Seyfullayevin tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi barədə qərar qəbul edilib. Ciddi nöqsanlara yol vermiş bəzi hakimlərin fəaliyyətinin yerində öyrənilməsi qərara alınıb.

# Hakimliyə namizədlərlə test üsulu ilə və yazılı imtahan keçirilib




**Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə dövlət başçısının tapşırıqlarına əsasən görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin tam şəffaf şəraitdə və obyektiv meyarlar əsasında seçimi həyata keçirilir. Bu çoxmərhələli seçim proseduru nəticəsində 3400-dən çox namizəd sırasından 400-dən artıq yüksək hazırlıqlı hüquqşünas yazılı və şifahi imtahanları, habelə uzunmüddətli tədris kurslarını müvəffəqiyyətlə başa vuraraq müxtəlif hakim vəzifələrinə təyin edilib.**

Hakimlərin iş yükünün azaldılması, işlərə vaxtında və daha keyfiyyətlə baxılması məqsədilə ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanı ilə hakim ştatlarının sayı 200 vahid artırılıb, habelə məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə yeni ixtisaslaşmış məhkəmələr yaradılıb.

Bununla əlaqədar hakimlərin seçimi üzrə cari ilin iyul ayının 26-dan açıq müsabiqə elan olunub. Ötən müddət ərzində sənədlərini təqdim etmiş 206 hüquqşünasla test imtahanının keçirilməsi qərara alınıb.

Sentyabr ayının 15-də Dövlət İmtahan Mərkəzində beynəlxalq və yerli müşahidəçilərin, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələrinin, televiziya və mətbuat təmsilçilərinin iştirakı ilə hakimliyə namizədlərlə test imtahanı keçirilib. Namizədlər üçün hər cür şəffaf və əlverişli şəraitin yaradıldığı imtahan zamanı onlar sualları müasir texnologiyaların tətbiqi ilə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırıblar.



İmtahanın nəticələri hər bir namizədə o, sualları cavablandırdıqdan dərhal sonra elan olunmaqla müvafiq arayış təqdim edilib, habelə nəticələr Məhkəmə-Hüquq Şurasının internet səhifəsində yerləşdirilib. Həmçinin, imtahan www.jlc.gov.az saytı vasitəsilə "on-line" rejimində birbaşa yayımlanıb.

İmtahanda 60 və daha artıq bal toplayaraq uğur qazanmış 158 hakimliyə namizəd müsabiqənin növbəti mərhələsinə buraxılıb.

Eyni zamanda Hakimlərin Seçki Komitəsi bildirir ki,

hakimliyə namizədlərin sənədlərinin qəbulu və müsabiqə davamlı olaraq həyata keçiriləcəkdir. Bununla əlaqədar hakim olmaq arzusunda olan hüquqşünaslar sənədlərini təqdim etməyə dəvət olunurlar.

**Sentyabrın 28-də test imtahanından uğur qazanmış 158 nəfər hakimliyə namizədlə Dövlət İmtahan Mərkəzində yazılı imtahan keçirilib. Hakimlərin seçilməsi Qaydalarına uyğun olaraq imtahan başlamazdan əvvəl hazırlanacaq imtahan suallarının sayı ilə bağlı Məhkəmə-Hüquq Şurası tərəfindən qərar qəbul edilib.**

Bundan sonra Hakimlərin Seçki Komitəsi imtahan keçirilən binada, özünün qapalı iclasında sualları hazırlayıb və onlar dərhal imtahan zalına gətirilib. Namizədlər bu suallardan təsadüfi yolla biri cinayət, biri isə mülki sahəyə aid olmaqla ikisini seçiblər.

4 saat davam edən imtahanda hakimliyə namizədlərə həmin sualları cavablandırmaqla, kazusları həll etmək, qoyulmuş məsələlərə düzgün qiymət vermək, qanunun məzmununu dolğun açmaqla onun səlist izahını vermək bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Tam anonim olan cavab vərəqələri ikiqat yoxlama üsulu ilə qiymətləndirildikdən sonra imtahan nəticələri elan olunacaqdır.

İmtahan prosesi müşahidəçilər tərəfindən şəffaf prosedur kimi yüksək dəyərləndirilib.

# Bakıda "Şəffaf və səmərəli ədalət mühakiməsi - innovativ nümunələr" mövzusunda görüş keçirilib






**Sentyabrın 30-da Ədliyyə Nazirliyinin və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin birgə təşkilatçılığı ilə "Şəffaf və səmərəli ədalət mühakiməsi - innovativ nümunələr" mövzusunda görüş keçirilib.**

Görüşdə nazirliyin və mərkəzin nümayəndələri, "Elektron məhkəmə" informasiya sistemi üzrə işçi qrupunun üzvləri, biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiyanın, ölkədə fəaliyyət göstərən çoxsaylı sahibkarlıq subyektlərinin, ictimai birliklərin və biznes assosiasiyalarının, aparıcı hüquq/konsaltinq şirkətlərinin, vətəndaş cəmiyyətinin təmsilçiləri və bir sıra KİV-lərin rəhbərləri iştirak ediblər.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, oktyabrda Dünya Bankının "Doing Business" hesabatı açıqlanacaq. Hesabatdan əvvəl yayılan blok xarakterli materiallarda dörd istiqamət üzrə, o cümlədən mübahisələrin həlli ilə bağlı məsələdə Azərbaycanda aparılan islahatların qəbul edildiyi qeyd olunub. Hazırda Azərbaycan "Doing Business" hesabatında 195 ölkə arasında 25-ci yerdədir. Digər tərəfdən, ölkəmiz hazırda "Doing Business"də mübahisələrin həlli kateqoriyası üzrə 44-cü yerdədir. Dünya Bankının blok xarakterli materialı göstərir ki, Azərbaycan mübahisələrin həlli üzrə 44-cü pillədən daha da irəliləyəcək.

V.Qasımlı vurğulayıb ki, Dünya Bankının nüfuzlu "Doing Business 2020" hesabatına əsasən, ölkəmiz ən islahatçı 20 ölkə sırasına daxil edilib.

Azərbaycanın bu il də "Doing Business" hesabatında islahatçı ölkələr arasında "TOP 20" siyahısına düşməsi böyük nailiyyətdir: "Çünki "Doing Business"də bizdən qabaqkı ölkələrin heç biri "TOP 20" islahatçıların siyahısına düşməyib. Finişə yaxınlaşdıqca TOP-islahatçı olmaq çətinləşir, islahat imkanları tükənir. Yəni, biz "Doing Business"də etalona 79 faiz yaxınlaşmışıq. Builki islahatlar bizi "Doing Business"də etalona 80 faizdən çox yaxınlaşdıracaq".

Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova qeyd edib ki, görüşün keçirilməsində məqsəd Azərbaycanda biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə məhkəmə-hüquq sistemində aparılan islahatlar və tətbiq olunan innovasiyalar, o cümlədən ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılmasında "Elektron məhkəmə" informasiya sisteminin üstünlükləri barədə məlumatlandırmanın təmin edilməsidir.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan ictimai həyatın bütün sahələrində mühüm nailiyyətlərə imza atır. Ölkədə aparılan genişmiqyaslı islahatlar real bəhrəsini verir və həyata keçirilən tədbirlər məhkəmə-hüquq sistemini də əhatə edir. Dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ilə bu sahədə islahatlar yeni mərhələyə yüksəlib. Bu mühüm sənədin icrası, o cümlədən sahibkarların hüquqlarının məhkəmə müdafiəsinin gücləndirilməsi üzrə qanunvericilik, institusional və praktiki tədbirlər görülüb. Bu məqsədlə yeni ixtisaslaşdırılmış - kommersiya məhkəmələri yaradılıb.

Nazirliyin İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə, "Elektron məhkəmə" informasiya sistemi üzrə işçi qrupun rəhbəri, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) prezidenti, hakim Ramin Qurbanov məhkəmə fəaliyyətinin avtomatlaşdırılması nəticəsində hüquqi xidmətlərə əlçatanlığın asanlaşdırılması, vətəndaşlara və sahibkarlara məhkəmələrə müraciət etmək üçün yaradılmış elektron imkanlar, o cümlədən şəxsi kabinet, elektron müraciət barədə təqdimatlarla çıxış ediblər. Qeyd olunub ki, Ədliyyə Nazirliyinin Dünya Bankı və digər beynəlxalq təşkilatlara birgə apardığı çox uğurlu, sistemli və ardıcıl iş artıq nəticəsini verir. Azərbaycanda ədalət mühakiməsinin səmərəliliyinə, məhkəmələrə inam artır.

Görüşdə iştirakçılarla faydalı müzakirələr aparılıb. Çıxışlarda ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması üzrə tətbiq olunan yeniliklərin vətəndaşların, o cümlədən sahibkarların hüquqlarının etibarlı müdafiəsinə xidmət etdiyi vurğulanıb, təkliflər səsləndirilib.

# Naxçıvan Şəhər Məhkəməsində "Elektron məhkəmə" informasiya sisteminin təqdimatı olub

**Sentyabrın 27-də Naxçıvan Şəhər Məhkəməsində "Elektron məhkəmə" informasiya sisteminin təqdimatı keçirilib.**

Muxtar Respublika Ali Məhkəməsinin, ixtisaslaşdırılmış, rayon (şəhər) məhkəmələrinin sədr və hakimlərinin, Ədliyyə nazirinin, nazirliyin İcra və Probasiya şöbəsinin və rayon (şəhər) bölmələrinin rəhbər və məsul əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə Muxtar Respublika Ali Məhkəməsinin sədri Qasım Əliyev, Ali Məclisin Aparat rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasına xidmət edən genişmiqyaslı məhkəmə-hüquq islahatlarından bəhs ediblər.

Qeyd olunub ki, 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" Fərmanının icrası və Naxçıvan Muxtar





Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun diqqət və qayğısı nəticəsində muxtar respublikada məhkəmələrin hər biri üçün müasir inzibati bina və iş şəraiti yaradılıb, məhkəmə orqanları müasir texnoloji vasitələrlə, o cümlədən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üçün zəruri infrastrukturla təmin olunub.

Həmçinin, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin əhəmiyyəti barədə məlumat verilib. Bildirilib ki, sistemin istifadəsi insanların məhkəməyə yeni və daha rahat üsullarla müraciət etmək imkanı yaratmaqla yanaşı, həm də vaxt itkisinin qarşısını alır. Bu da məhkəmələrə ictimai etimadı gücləndirir. Sistem istənilən hesabatı qısa vaxt ərzində hazırlamağa imkan verir ki, bu da məhkəmə statistikasının vaxtında aparılmasına, zəruri ümumiləşdirmələr hazırlanmasına şərait yaradır. Hakimlər və məhkəmə aparatının bütün işçiləri sistemdən səmərəli istifadə etməli, yaradılanları qorumalı, bu sahəyə ixtisaslı mütəxəssislər cəlb olunmalıdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri Suliddin Əliyev, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi "Elektron məhkəmə" İnformasiya Sistemi üzrə İşçi Qrupunun rəhbəri, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti, hakim Ramin Qurbanov "Elektron məhkəmə" informasiya sisteminin imkanları və səmərəliliyi barədə danışıblar.

Eyni zamanda, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin funksiyaları, istifadə qaydaları və üstünlükləri barədə təqdimatlarla çıxışlar edilib, mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

Sonda e-məhkəmənin iş prinsipi ilə tanışlıq olub, proses iştirakçılarının SMS vasitəsilə məlumatlandırılması sistemi əyani şəkildə iştirakçılara göstərilib.

# Alternativ icra mexanizmlərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübə öyrənilir

**Ədalət mühakiməsinin səmərəli həyata keçirilməsində, vətəndaşların hüquqlarının təmin olunmasında məhkəmə qərarlarının icrası müstəsna əhəmiyyət kəsb edir. Ədliyyə Nazirliyi tərəfindən bu sahədə işin müasir çağırışlara uyğun təkmilləşdirilməsi, məhkəmə qərarlarının icrasının vaxtında və tam təmin olunması istiqamətində ardıcıl təsirli tədbirlər görülür.**

Ölkə Prezidenti İlham Əliyevin aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının icrası çərçivəsində məhkəmə qərarlarının icrasının sürətləndirilməsi və effektivliyinin yüksəldilməsi, icra orqanlarının fəaliyyətində operativliyin və şəffaflığın artı-

rılması məqsədilə "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, süründürməçilik və sui-istifadə hallarının qarşısının qətiyyətlə alınması üzrə konkret addımlar atılıb. İcra sahəsində fəaliyyəti tənzimləyən normativ aktların sistemləşdirilməsi məqsədilə ilk dəfə olaraq İcra Məcəlləsinin layihəsi işlənib hazırlanıb.

Eyni zamanda, Fərmanın icrası ilə bağlı, həmçinin icra xidmətində iş həcminin kəskin artaraq hazırda 900 mini ötməsi ilə əlaqədar məhkəmələrin və digər orqanların qərarlarının icrasının alternativ mexanizmləri, habelə icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı beynəlxalq praktika və müxtəlif dövlətlərin bu sahədə qanunvericiliyi öyrənilib, təcrübələri ilə yerində tanış olunub.





Məhkəmə qərarlarının icrası məsələsi bütün dövlətlərdə mühüm əhəmiyyət kəsb etdiyindən bu sahədə alternativ mexanizmlər, o cümlədən icra işinin özəl qurumlara həvalə olunması institutu geniş tətbiq edilir. Özəl icra sisteminin ölkəmizdə tətbiqi məhkəmə qərarlarının icrasının daha operativ, səmərəli təmin edilməsinə, yekun məhkəmə qərarının vətəndaşın seçimi ilə istənilən icra məmuruna icra üçün təqdim olunmasına, icra sənədi statusuna malik borc müqavilələri üzrə sənədlərin məhkəməyə getmədən özəl icra məmurları ilə birbaşa müqavilə bağlanılmaqla icrasının təmin olunmasına imkan yaradacaq. Bu, həm də məhkəmələrin iş yükünün azaldılmasına, dövlətin icra sahəsində xərclərindən tam və ya qismən azad olmasına, özünümaliyyələşdirmə və rəqabət prinsipi əsasında qənaətbəxş gəliri olan çoxsaylı özəl iş yerlərinin açılmasına xidmət edəcək.

Ədliyyə Nazirliyi tərəfindən bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi üzrə tədbirlər davam etdirilir, bu məqsədlə nazirliyin İcra baş idarəsinin rəisi - baş icra məmuru Nurəddin Mustafayevin rəhbərliyi ilə nümayəndə heyəti bu günlərdə Fransa və Niderlandda tanışlıq səfərində olub.

Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) təşkilatçılığı ilə həyata keçirilmiş səfər zamanı nümayəndə heyəti həmin ölkələrin özəl icra sistemləri ilə yaxından tanış olub, müxtəlif görüşlər keçirilib.

Tədbirlərdə özəl icra qurumlarının xüsusiyyətləri, bu sahədə ədliyyənin fəaliyyəti, dövlətin maraqları, özəl icra məmurlarının istifadəsində olan elektron informasiya sisteminin funksionallıqları barədə faydalı fikir və təcrübə mübadiləsi aparılıb, təqdimatlar keçirilib. Həmçinin, nümayəndə heyəti icra məmurlarının məhkəmə qərarlarının icrası ilə yanaşı, həyata keçirdikləri hüquqi xidmət, mediasiya, kollektor fəaliyyəti və digər işlər barədə məlumatlandırılıb.

# Ədliyyə Nazirliyinin nümayəndə heyəti Şanxay Əməkdaşlıq Təşkilatının Forumunda iştirak edib




**Sentyabrın 25-26-da Çin Xalq Respublikasının Şanxay şəhərində Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) məkanında hüquqi xidmətlərin Beynəlxalq Forumu keçirilib.**

ŞƏT dövlətlərindən 300-dən artıq nümayəndənin iştirak etdiyi tədbirdə ölkəmizi Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin rəisi İlqar Məmmədov və İnformasiya-kommunikasiya Texnologiyaları İdarəsinin rəisi Ağakərim Səməd-zadə təmsil edib. Tədbirdə hüquqi xidmətlərin sisteminin yaradılması, bu sahədə beynəlxalq əməkdaşlıq və kommersiya mübahisələrinin həlli mexanizmləri kimi aktual məsələlər müzakirə olunub.

Açılış mərasimində Çinin ədliyyə naziri Fu Çjenxua, Rusiyanın ədliyyə naziri A.V.Konovalov, Qırğızıstanın ədliyyə naziri M.T.Camankulov, ŞƏT Baş katibinin müavini N.S.Akkoşkarov, Şanxay şəhərinin meri İn Yun və digər rəsmi şəxslər çıxış ediblər.




Daha sonra iştirakçı dövlətlərin ədliyyə nazirliklərinin rəhbər şəxsləri tərəfindən öz ölkələrində hüquqi xidmətlərin təşkili və əldə olunmuş nəticələr barədə məlumat verilib.

Forumda nümayəndə heyətimiz tərəfindən əyani təqdimatla çıxış edilərək Azərbaycanda dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, vətəndaşlara göstərilən hüquqi xidmətlərin səmərəli təşkili, o cümlədən bu sahədə müasir innovasiyaların tətbiqi, elektron ədliyyə xidmətləri, "e-məhkəmə" və "e-notariat" informasiya sistemləri barədə məlumat verilib. Dövlət xidmətlərinin göstərilməsində ən uğurlu model olan Azərbaycan brendi "ASAN xidmət"in vətəndaş məmnunluğu doğuran fəaliyyətindən bəhs olunub.

Həmçinin, mediasiya, xüsusilə nikahın pozulması hallarında mediasiya xidmətlərinin tətbiqi, eləcə də sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi, bu sahədə tədbirlərin biznesin inkişafına təsiri barədə danışılıb.

Çıxışda iştirakçıların diqqəti xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, Ermənistanın dövlət səviyyəsində yürütdüyü işğalçılıq siyasətinə, beynəlxalq hüququn norma və prinsiplərini ayaqlar altına atmasına cəlb

olunub, Ermənistan rəhbərliyinin regionu yeni təhlükə və risklərlə üzbəüz qoyan təxribatçı və destruktiv açıqlamalarının, habelə beynəlxalq aləmdə tanınmaq məqsədilə vətəndaşlara hüquqi qüvvəsi olmayan sənədlərin verilməsinin narahatlıq doğurduğu vurğulanaraq beynəlxalq ictimaiyyətin bu məsələlərə ciddi reaksiya verməsinin zəruriliyi bildirilib.

Tədbir çərçivəsində İran, Türkmənistan, Özbəkistan, Belarus və Tacikistan respublikalarının ədliyyə nazirlərinin müavinləri ilə görüşülərək ədliyyə sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb.

Səfər zamanı, həmçinin Şanxayın Məhkəmə Ekspertizası Akademiyasına səfər edilərək, ən qabaqcıl avadanlıqlarla təchiz olunmuş qurumun fəaliyyəti ilə tanış olunub, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

# Ailə institutunun inkişafına yönələn tədbirlər davam etdirilir

**Əhaliyə göstərilən hüquqi xidmətin səviyyəsinin yüksəldilməsi, habelə ailə dəyərlərinin qorunması və möhkəmləndirilməsi daim Ədliyyə Nazirliyinin diqqət mərkəzində saxlanılır.**

Ailə institutunun inkişafına və nikah münasibətlərinin tənzimlənməsinə dəstək verilməsi, nikahın pozulması hallarının qarşısının alınması məqsədi ilə vətəndaş cəmiyyəti institutları ilə birgə layihə çərçivəsində Ədliyyə Nazirliyinin Bakı şəhərindəki rayon və "ASAN xidmət" mərkəzlərində qeydiyyat şöbələrinin bu sahədə fəaliyyətinə psixoloqlar cəlb edilib.

Nikahın pozulması üçün qeydiyyat şöbələrinə müraciət edən insanlar arasında həmin psixoloqlar tərəfindən izahat işinin aparılması, səbəblərin öyrənilməsi və aradan qaldırılması istiqamətində söhbətlərin keçirilməsi nəticəsində onların bir qismi bu fikirdən daşınıb. Belə ki, bu xidmətin göstərilməyə başlandığı gündən hazıradək həmin şəxslərin 20%-ə qədəri nikahın pozulmasından imtina edib.



Qeyd olunan xidmətin müsbət nəticə verdiyi nəzərə alınaraq cari ildə onun respublikanın bəzi rayonlarında da tətbiqinə başlanılıb.

Bu işin daha da təkmilləşdirilməsi və yeni iş üsullarının tətbiq edilməsi məqsədi ilə 2019-cu il sentyabrın 13-də Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində Bakı şəhərində fəaliyyət göstərən qeydiyyat orqanlarının əməkdaşları və psixoloqların iştirakı ilə məsləhətləşmələr aparılıb.

Tədbirdə Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin rəisi R.Kərimova və Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsi Qeyri-hökümət təşkilatları ilə iş şöbəsinin rəisi S.Salmanova bu işin əhəmiyyəti, həyata keçirilməli yeni təşkilati məsələlər ilə bağlı tədbirləri müzakirə ediblər. Müzakirə zamanı daha yüksək nəticələrin əldə olunması məqsədilə bu fəaliyyətin tətbiq edildiyi ərazinin genişləndirilməsi məqsədəmüvafiq hesab olunub.

Bu sahədə tədbirlər davam etdirilir.

# Ədliyyə Nazirliyi tərəfindən vətəndaş cəmiyyəti üçün təlimlər keçirilib

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən Qəbələ şəhərində vətəndaş cəmiyyəti nümayəndələrinə "Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə qeyri-hökumət təşkilatlarının öhdəlikləri" adlı təlim keçirilib.**



Tədbir iştirakçılarına qeyri-hökumət təşkilatının daxili nəzarət sisteminin hazırlanması, məsul şəxsin və daxili auditorun təyin edilməsi, müştərilərin eyniləşdirilməsi, verifikasiyası və sair mövzularda mühazirələr oxunub, təqdimatlar nümayiş etdirilib.

Təlimdə Ədliyyə Nazirliyinin əməkdaşları ilə yanaşı, ekspert qismində Ədliyyə naziri yanında İctimai Komitənin üzvü Əliməmməd Nuriyev, həmin şəhərdə və ətraf rayonlarda fəaliyyət göstərən QHT nümayəndələri iştirak ediblər.

Oxşar tədbirlər Şirvan, Quba və Gəncə şəhərlərində də təşkil edilib.

# Ədliyyə Nazirliyində beynəlxalq görüşlər

**Sentyabrın 4-də Avropa Şurasının Vətəndaş Cəmiyyətləri ilə iş üzrə Bölməsinin rəhbəri xanım Mary-Ann Hennessey ilə Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində görüş keçirilib.**





Görüşdə xanım Mary-Ann Hennessey "Azərbaycanda Vətəndaş iştirakçılığının Təşviqi" Layihəsinin ilkin variantı barədə məlumat verib. Bildirilib ki, əsas məqsəd yalnız Bakı şəhərində deyil, eləcə də regionlarda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının fəal iştirakına nail olmaqla, onların dövlət orqanları və bələdiyyələrlə qarşılıqlı faydalı əməkdaşlığının təmin olunmasından ibarətdir.

Tədbirdə eyni zamanda qərarların qəbul edilməsində həqiqi vətəndaş iştirakına nail olmaq üçün qeyri-hökumət təşkilatları və dövlət orqanları arasında davamlı və əhatəli dialoqun yaradılmasının zəruriliyi qeyd edilib.

Həmçinin 2016-2018-ci illərdə Avropa Şurası və Avropa Birliyi tərəfindən həyata keçirilən "Azərbaycanda vətəndaş cəmiyyəti dialoqu" Layihəsinin Azərbaycan hakimiyyəti ilə vətəndaş cəmiyyəti nümayəndələri arasında tərəfdaşlığın qurulmasında müstəsna rolu vurğulanıb.

**Sentyabrın 12-də Rusiya Federasiyasının Sverdlovsk vilayətinin Beynəlxalq və Xarici İqtisadi Əlaqələr naziri Vasili Kozlovun və Mədəniyyət naziri Svetlana Uçaykinanın başçılıq etdiyi nümayəndə heyəti ilə Ədliyyə Nazirliyində görüş keçirilib.**



Görüşdə Azərbaycan və Rusiya arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub, hər iki ölkədə yerli özünüidarəetmənin təşkili, fəaliyyəti və inkişaf xüsusiyyətlərinə dair faydalı fikir mübadiləsi aparılıb, bu sahədə yaxşı təcrübələrin mübadiləsinin hər iki tərəf üçün səmərəsi vurğulanıb.

Müzakirələr zamanı nazirliyin Bələdiyyələrlə iş mərkəzi tərəfindən yerli demokratiyanın inkişafı, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması sahəsində görülən işlərə maraq göstərilib, bu sahədə əlaqələrin genişləndirilməsinə qarşılıqlı niyyət ifadə olunub.

Tədbirdə Ədliyyə Nazirliyinin aidiyyəti məsul şəxsləri və bələdiyyələrin milli assosiasiyalarının rəhbərləri iştirak ediblər.

**Sentyabrın 30-da Ədliyyə Nazirliyi Probasiya xidmətində Beynəlxalq Qızıl Xaç Komitəsinin Penitensiar Sistem üzrə məsləhətçisi xanım Maya Xasiya, Müdafiə işləri üzrə nümayəndəsi xanım Lorans Kütur Qaqnyon və hüquq məsələləri üzrə məsləhətçisi xanım Jalə Əzizova ilə görüş keçirilib.**




Görüşdə Probasiya Xidmətinin rəisi-Baş probasiya məmuru Akşin Ziyadov cəza siyasətinin humanistləşdirilməsinə dair dövlət başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən Cinayət Məcəlləsinə əsaslı dəyişikliklər edilərək bir sıra əməllərin dekriminallaşdırıldığı, həbsə alternativ qətimkan tədbirlərinin və azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların tətbiqinin genişləndirildiyi, probasiya xidmətinin yaradıldığı, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların icrasının səmərəliyinin artırılması məqsədilə tədbirlər görüldüyü, elektron nəzarət vasitələrinin geniş tətbiqi və belə tədbirlərinin bu gün də davam etdirildiyi bildirilib.

Həmçinin, probasiya sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, icra məmurlarının (probasiya üzrə) tədrisi və digər maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb, qeyd olunan sahələrdə Probasiya Xidməti ilə BQXK arasında əməkdaşlığın istiqamətləri müzakirə olunub, maraq doğuran suallara aydınlıq gətirilib.

Qonaqlar ölkədə Probasiya Xidmətinin təşkili, xüsusilə elektron nəzarət vasitələrinin tətbiqi ilə əlaqədar görülmüş işləri yüksək qiymətləndiriblər. Sonda Komitənin nümayəndələri Probasiya Xidmətinin Elektron Monitorinq Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

# Ədliyyə Akademiyasında

## ◆ Vəkilliyə namizədlərin icbari təlimi





**Ölkə Prezidenti cənab İlham Əliyevin ölkədə vəkillərin sayının artırılması ilə bağlı tövsiyələri çərçivəsində Vəkillər Kollegiyası üzvlüyünə qəbul üzrə tədbirlərin həyata keçirilməsi davam etdirilir.**

Sentyabrın ayında Ədliyyə Akademiyasında yazılı və şifahi imtahanlarda müvəffəqiyyət qazanmış 96 vəkilliyə namizədlə bir ayadək davam edən icbari təlim keçirilib.

Təlim zamanı onların lazımi biliyə və peşə hazırlığına yiyələnmələrinə, habelə beynəlxalq təcrübəni öyrənmələrinə xüsusi diqqət yetirilərək, insan haqlarının qorunması, vəkil etikası və digər aktual məsələlərə dair mövzular nüfuzlu ekspertlərin iştirakı ilə tədris olunub.

İcbari təlimin ilk günündə namizədlərlə keçirilən görüşdə Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov tədbirdə açılış nitqi ilə çıxış edərək, vəkillərin ilkin icbari və davamlı tədrisinin əhəmiyyəti barədə fikirlərini səsləndirib, Vəkillər Kollegiyası ilə birgə hazırlanmış tədris proqramının məzmun baxımından yeniliklərlə zəngin olması barədə namizədlərə məlumat verib və onlara uğurlar arzulayıb.

Sonra Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək, vəkillik institutunun inkişafı ilə bağlı həyata keçirilən tədbirlər və gələcək planlar, Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamının bu baxımdan xüsusi əhəmiyyət kəsb etməsi, bu çərçivədə ölkədə fəaliyyət göstərən vəkillərin sayının savadlı və peşəkar hüquqşünaslar hesabına artırılmasının önəmi barədə danışıb, o cümlədən vəkilliyə qəbulla bağlı keçirilən ixtisas imtahanlarının yazılı və şifahi mərhələsindən uğurla keçmiş namizədləri bu münasibətlə təbrik edərək, hazırki icbari təlimin vəkilliyə namizədlərin gələcək peşə fəaliyyəti üçün əhəmiyyətini vurğulayıb.

Bildirilib ki, təlimçilərin tərkibi əsasən peşəkar vəkillərdən komplektləşdirilib, namizədlər üçün təcrübi dərslərin keçirilməsi, habelə muzeylərə və digər mədəni obyektlərə səfərlərin təşkil olunması nəzərdə tutulub.

Daha sonra Vəkillər Kollegiyası sədrinin "Müasir məhkəmə-hüquq islahatları çərçivəsində vəkillik" mövzusunda mühazirəsi dinlənilib, namizədləri maraqlandıran suallar cavablandırılıb.

## Hakimlər və vəkillər üçün təlimlər

**2-3 və 5-6 sentyabr tarixlərində Beynəlxalq Miqrasiya Təşkilatı və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Beynəlxalq miqrasiya hüququ" mövzusunda təlimlər keçirilib.**



Ümumilikdə 40-a yaxın hakim və vəkilin iştirak etdiyi təlimlərdə beynəlxalq ekspertin və Vəkillər Kollegiyası üzvlərinin təqdimatları dinlənilib.

Hər iki təlimdə beynəlxalq miqrasiya hüququnun subyektləri, mənbələri, hüquqi və normativ çərçivəsi, dövlətlərin miqrasiya ilə bağlı səlahiyyətləri və beynəlxalq miqrasiya hüququ tərəfindən qoyulan məhdudiyyətlər, dövlət suverenliyi və hərəkət azadlığı hüquq kimi mövzular üzrə mühazirələr deyilib.

Həmçinin, təlimlərdə geri qaytarılmama prinsipi, ölkəyə daxil olma və ölkədən çıxışın tənzimlənməsi, yaşamaq, toxunulmazlıq və azadlıq hüquqları, sərbəst hərəkət azadlığının təmin edilməsi, qaçqınlar, sığınacaq axtaranlar, yaşama şəraiti, iqtisadi, sosial, mədəni hüquqlar, fiziki imkanları məhdud olan miqrantlar, qadın və uşaq miqrantlar kimi məsələlər dinləyicilərin diqqətinə çatdırılıb, mövzu barəsində müxtəlif kazuslar həll edilib.

## Hakimlər üçün ixtisasartırma kursları keçirilib

**Sentyabrın 9-da Ədliyyə Akademiyasında Beynəlxalq Miqrasiya Təşkilatı və Akademiyanın birgə təşkilatçılığı ilə "Qadınların ədliyyəyə çıxışının təkmilləşdirilməsi" mövzusunda təlim keçirilib.**



30 hakimin iştirakı ilə keçirilən zamanı Beynəlxalq Miqrasiya Təşkilatının eksperti Könül Qasımovanın təqdimatları dinlənilib.

Təlimdə qadınların (insan) hüquqları, cinsi və ya gender əsaslı qeyri - diskriminasiya, gender stereotipləri, məişət zorakılığı, cinsi zorakılıq, İstanbul Konvensiyasının tətbiqi ilə bağlı məsələlər hakimlərin diqqətinə çatdırılıb, mövzu ilə bağlı müxtəlif kazuslar həll edilib.

Eyni zamanda, hakimlərin Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzi

ilə tanışlıq tədbiri həyata keçirilib, elektron qolbağın istifadə qaydaları əyani şəkildə göstərilib.

***

**Sentyabrın 13-də Ədliyyə Akademiyasında hakimlər üçün "Hakimlərin deontologiya məsələləri və Etik Davranış Kodeksi" mövzusunda ixtisasartırma kursu keçirilib.**

22 hakimin iştirak etdiyi kursda Quba Rayon Məhkəməsinin sədri, Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin sədri və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndəsinin təqdimatları dinlənilib.

Kursda müasir idarəetmənin sosial-hüquqi aspektləri, hakimlərin etik davranışının xüsusiyyətləri: milli qanunvericilik və təcrübə, hakimlərin kütləvi informasiya vasitələri ilə qarşılıqlı münasibətləri kimi məsələlər hakimlərin diqqətinə çatdırılıb.

Eyni zamanda hakimlər üçün Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzi ilə tanışlıq tədbiri həyata keçirilib, elektron qolbağın istifadə qaydaları əyani şəkildə göstərilib.



***

**Sentyabrın 20-də Ədliyyə Akademiyasında hakimlər üçün "Cinayət işləri üzrə məhkəmə baxışının xüsusiyyətləri" mövzusunda ixtisasartırma kursu keçirilib.**

37 hakimin iştirak etdiyi kursda Sumqayıt Apellyasiya Məhkəməsinin, Bakı Apellyasiya Məhkəməsinin hakimləri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Maliyyə Monitorinq Xidmətinin əməkdaşlarının təqdimatları dinlənilib.

Kursda ayrı-ayrı cinayət işləri üzrə məhkəmə təcrübəsindən irəli gələn problemlər, qətimkan tədbirlərinin seçilməsi xüsusiyyətləri, korrupsiyaya qarşı mübarizədə beynəlxalq konvensiyaların əhəmiyyəti, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin hüquqi tövsifi və sübuta yetirilməsi, bəraətin əsasları, bəraət verilərkən həll edilməli olan məsələlər, reabilitasiya və vurulmuş ziyanın ödənilməsi kimi məsələlər barədə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

Eyni zamanda hakimlər üçün Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzi ilə tanışlıq tədbiri həyata keçirilib, elektron qolbağın istifadə qaydaları əyani şəkildə göstərilib.

## İcra məmurları üçün təlimlər

**Ədliyyə Akademiyasında icra məmurları üçün "Ünsiyyət psixologiyası, konfliktli vəziyyətlərin idarə olunması və stressin götürülməsi" mövzusunda iki təlim keçirilib.**

Ümumilikdə 50 nəfər icra məmurunun iştirak etdiyi təlimlərdə "Şəxsiyyətlərarası qarşılıqlı münasibətlər, konfliktlər və onların həlli metodları", "Ünsiyyətin növləri, ünsiyyət zamanı tərəf müqabilinə təsir etmənin əhəmiyyəti", "İcra məmurları tərəfindən icra hərəkətləri aparılan zaman vətəndaşlarla yaranan problemlər və onların həlli yolları" və "Şəxsiyyətinin psixoloji tipologiyası" mövzuları üzrə mühazirələr



dinləyicilərin diqqətinə çatdırılıb.

Tədris proqramında nəzərdə tutulmuş mövzuların tədrisi Ədliyyə Nazirliyi Katibliyinin Vətəndaşların qəbulu şöbəsinin, Məhkəmə Ekspertizası Mərkəzinin, Tibb Baş İdarəsinin və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının müvafiq əməkdaşları tərəfindən həyata keçirilib.

***

**Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi haqqında Fərmanının müddəalarında nəzərdə tutulmuş "Elektron icra" sisteminin tətbiqinin genişləndirilməsi istiqamətində işlər davam edirilir.**

Bu məqsədlə Ədliyyə Akademiyasında "Elektron icra sistemindən istifadə qaydaları" mövzusunda ardıcıl təlim kursları keçirilir.

Sentyabr ayı ərzində təşkil edilmiş, ümumilikdə 25 nəfərədək icra məmurunun iştirak etdiyi təlimlərdə "Qiymətləndirmə və hərracın keçirilməsi", "Elektron icra sisteminin tətbiqi qaydaları", "Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması" mövzuları mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

## Məhkəmə aparatı işçiləri üçün ixtisasartırma kursları

**Sumqayıt Apellyasiya və İnzibati-İqtisadi məhkəmələrində çalışan məhkəmə aparatı işçiləri üçün "Məhkəmələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi məsələləri" mövzusunda təlim keçirilib.**

Ümumilikdə 40-a yaxın əməkdaşın iştirak etdiyi təlimdə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 03 aprel 2019-cu il tarixli Fərmanı", "Məhkəmələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin əsasları", "Elektron məhkəmə informasiya sistemindən məhkəmələrdə səmərəli istifadə məsələləri" barədə mövzular tədris olunub.



***

Həmçinin, Ədliyyə Akademiyasında Bakı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan məhkəmələrin aparat işçiləri üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı Maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)" mövzusunda təlim keçirilib.

30-dək məhkəmə aparatı işçisinin iştirak etdiyi təlimdə "AİHK-nın 6-cı maddəsi, nəzəri aspektlər", "6-cı maddənin təmin etdiyi maddi hüquqlar", "Məhkəmə araşdırmasının ədalətliliyi" barədə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

## ◆Bələdiyyə üzvləri və qulluqçuları üçün kurslar keçirilib

**Bakı şəhəri ərazisində fəaliyyət göstərən bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə Ədliyyə Akademiyasında tədris kursu keçirilib.**

20-dən çox dinləyicinin qatıldığı kursda "Çoxmənzilli binaların idarə edilməsi sahəsində bələdiyyələrin rolu", "Yerli turizmin, eləcə də tibbi turizmin təşkilində bələdiyyələrin iştirakı", Sahibkarlığın inkişafında və əhalinin məşğulluğunun təmin olunmasında bələdiyyələrin iştirakı", "Vergi uçotunun qurulması, yerli vergi və ödənişlərin nağdsiz ödəmə vasitəsilə həyata keçirilməsi", "Beynəlxalq təcrübəyə əsasən insan hüquqlarının qorunmasında bələdiyyələrin rolu" kimi mühazirələr tədris olunub.



Həmçinin Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Bələdiyyələrlə iş mərkəzinin birgə təşkilatçılığı ilə Göyçay rayonunda bələdiyyə üzvləri və bələdiyyə qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə tədris kursu təşkil edilib.

Göyçay regional ədliyyə idarəsində keçirilən təlimdə 60-dək bələdiyyə üzvü və qulluqçusu iştirak edib.

Tədbirdə "Bələdiyyə mülkiyyəti, əmlak təminatı və mülkiyyət toxunulmazlığı. Bələdiyyə mülkiyyətinə dair Avropa Şurasının sənədləri", "Strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı", "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi və bələdiyyə media münasibətlərinin hüquqi tənzimlənməsi", "Bələdiyyələrdə arxiv işinin təşkili", mövzuları üzrə mühazirələr dinlənilib.

# Ədliyyə işçilərinin Quba və Xaçmaz rayonlarında gəzinti-istirahət turu təşkil olunub

**Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasını uğurla həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı sosial-iqtisadi tərəqqisi təmin olunur, vətəndaşların rifahı günbəgün yüksəlir, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, ədliyyə və məhkəmə-hüquq sistemində mütərəqqi islahatlar aparılır.**

Dövlətin hüquq siyasətinin həyata keçirilməsində mühüm rol oynayan Azərbaycan ədliyyəsinin inkişafı naminə ədliyyə işçiləri üzərlərinə düşən xidməti vəzifələrinin icrasına hər zaman böyük məsuliyyətlə yanaşır, bu sahədə həyata keçirilən islahatlara layiqli töhfələr verirlər.

Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən qulluqda fərqlənən işçilər barədə daim həvəsləndirmə tədbirləri görülür, onların sosial rifahının yüksəldilməsinə, sağlamlığının və fiziki hazırlığının möhkəmləndirilməsinə, mənəvi-estetik dünyagörüşlərinin artırılmasına, asudə vaxtlarının səmərəli təşkilinə qayğı ilə yanaşılır.

Bu sahədə nazirliyin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi yaxından iştirak edir, əmək, sosial-iqtisadi, həmçinin əməyin mühafizəsi haqqında qanunvericiliyə uyğun əmək-

Quba Soyqırımı Memorial Kompleksini ziyarət










Xaçmaz şəhəri Heydər Əliyev Mərkəzinə səfər

daşların mənafelərini qoruyur, onlara Komitənin xətti ilə müxtəlif məsələlərdə köməklik göstərilir.

Eyni zamanda, hər il yay mövsümündə ədliyyə və məhkəmə işçilərinin istirahətlərini mənalı və səmərəli keçirməsi üçün ölkəmizin zəngin təbiətə malik bölgələrinə əməkdaşların kollektiv şəkildə gəzintisi təşkil olunur.

Cari ilin sentyabrında böyük bir qrup ədliyyə və məhkəmə aparatı işçiləri Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin xətti ilə ölkəmizin əlverişli iqlimi və turizm imkanları ilə seçilən Quba-Xaçmaz regionunda maraqlı istirahət-gəzinti turunda olublar.

Qubaya səfər zamanı əməkdaşlar Soyqırımı Memorial Kompleksinə gələrək 1918-ci ildə cinayətkar erməni hərbi dəstələri tərəfindən törədilmiş soyqırımı qurbanlarının dəfn olunduğu yerdə ucaldılmış abidəni ziyarət edib, erməni-bolşevik birləşmələrinin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıb.

Bundan əlavə, ədliyyə işçiləri Xaçmazda xalqımızın milli memarlıq ənənələrini özündə əks etdirən ən müasir üslubda tikilən Heydər Əliyev Mərkəzini ziyarət edib, rayonda açıq səma altında yaradılmış Şəxsiyyətlər muzeyi ilə yaxından tanış olublar.

Səfər çərçivəsində əməkdaşların həmçinin, Xaçmazın Nabran qəsəbəsində yerləşən "River-İnn" turizm mərkəzində istirahəti təşkil edilib, bir-birindən maraqlı musiqili-əyləncəli proqramlar, intellektual oyunlar keçirilib. Gəzinti-istirahət turu işçilərdə xoş ovqat və zəngin təəssürat yaradıb.



Xaçmaz şəhəri Şəxsiyyətlər muzeyi ilə tanışlıq

# Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə

# QƏRARI

Məhkəmə-Hüquq Şurası F.F.Məmmədovun sədrliyi, hakim R.K.Səfərovun məruzəsi və R.Ç.Quliyevanın katibliyi ilə Şabran Rayon Məhkəməsinin sədri Çingiz Əmir oğlu İsgəndərovun haqqında intizam icraatı üzrə işə baxaraq

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Şabran Rayon Məhkəməsinin sədri Çingiz Əmir oğlu İsgəndərovun haqqında intizam icraatının başlanılması üçün Məhkəmə-Hüquq Şurasına müraciət etmişdir.

Müraciət edilməsinə səbəb Sumqayıt Apelyasiya Məhkəməsinin yurisdiksiyasında olan birinci instansiya məhkəmələrində hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsinə dair 2016-2017-ci illərdə baxılmış işlər üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin ümumiləşdirməsi nəticəsində hakim Çingiz İsgəndərov tərəfindən qanunvericiliyin tələblərinin dəfələrlə pozulması hallarına yol verilməsinin aşkar edilməsi olmuşdur.

Məhkəmə-Hüquq Şurasının qərarı ilə hakim Çingiz İsgəndərovun barəsində intizam icraatı başlanılmış və Məhkəmə-Hüquq Şurasının üzvü Rizvan Səfərov intizam icraatı üzrə məruzəçi təyin olunmuşdur.

İntizam icraatının başlanılmasına əsas olmuş məsələlərlə əlaqədar məruzəçi tərəfindən araşdırma aparılmış, hakim Çingiz İsgəndərov materiallarla tanış olaraq izahat vermişdir.

Məhkəmə-Hüquq Şurasının iclasında məruzəçi hakimin məruzəsinə və aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edildi ki, Şabran Rayon Məhkəməsinin hakimi Çingiz İsgəndərovun sədrliyi ilə baxılmış əmək stajının mövcud olması faktına və şəxsin müəyyən vaxtda müəyyən şəraitdə vəfat etməsi faktına dair 3 işdə heç bir şahid ifadəsinə əsaslanılmadan qətnamə çıxarılmışdır.

Hakim Çingiz İsgəndərovun sədrliyi ilə baxılmış bir sıra işlərdə ərizəçilərin mübahisəli daşınmaz əmlakı alarkən müəyyən səbəblərə görə (əksər hallarda daşınmaz əmlakın hüquqmüəyyənedici sənədlərində çatışmazlıq olduğuna və ya həmin sənəd olmadığına görə) alqı-satqı müqaviləsi bağlamadıqları və sonradan daşınmaz əmlakı satan şəxsin vəfat etməsi ilə əlaqədar mübahisəli daşınmaz əmlaka sahiblik, istifadə və sərəncam vermək faktının müəyyən edilməsi barədə ərizələri təmin edilmiş, bununla da daşınmaz əmlakın qanuni sahibinin (bəzi hallarda mülkiyyətçisinin) qanunla qorunan hüquq və mənafeyi pozulmuşdur.

Belə ki, ərizəçi C.Məmmədov məhkəməyə müraciət edərək, 2010-cu ildə R.Əmirovdan aldığı 500 kv. metr həyətyanı torpaq sahəsinə onun mülkiyyət hüququ üzrə sahiblik, istifadə və sərəncam vermək faktının müəyyən edilməsini xahiş etmiş, Şabran Rayon Məhkəməsinin 27 noyabr 2017-ci il tarixli qətnaməsi ilə ərizə təmin edilmişdir. Məhkəmə işə baxarkən maraqlı tərəf qismində R.Əmirovu, o, yoxdursa onun hüquqi varisini işə cəlb etməmiş, bundan başqa, həmin iş üzrə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 5 saylı Ərazi İdarəsinə məhkəmə bildirişinin və məhkəmə qərarının göndərilməsinə dair iş materiallarında hər hansı bir məlumat mövcud olmamışdır.

Eyni qanun pozuntularına Çingiz İsgəndərovun sədrliyi ilə baxılmış daha 13 iş üzrə də yol verilmişdir.

Başqa bir işdə ərizəçi M.Haqverdiyev məhkəməyə müraciət edərək, R.Əbilov və ailə üzvlərinə məxsus 2.83 ha torpaq sahəsinə və A.Əbilov və ailə üzvlərinə məxsus 1.88 ha torpaq sahəsinə onun mülkiyyət hüququ üzrə sahiblik, istifadə və sərəncam vermək faktının müəyyən edilməsini xahiş etmişdir. Ərizəçi M.Haqverdiyev sözügedən torpaq sahələrinin qohumu İ.Eyvazov tərəfindən 2002-ci ildə R.Əbilov və A.Əbilovla razılığa gəlinərək (alqı-satqı müqaviləsi olmadan) alındığını, bir müddət sonra İ.Eyvazovun həmin torpaq sahələrini ona verdiyini, torpaq sahələrinin mülkiyyətçilərinin isə alqı-satqının rəsmiləşdirilməsi üçün notariat kontoruna getmək istəmədiklərini bildirmişdir.

Həmin iş üzrə maraqlı tərəflər R.Əbilov, A.Əbilov və onların ailə üzvləri, habelə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 5 nömrəli Ərazi idarəsinə məhkəmə bildirişinin və məhkə-

mə qərarının göndərilməsinə (çatdırılmasına) dair işdə hər hansı bir məlumat mövcud olmamış, işə 17 gün müddətində baxılaraq, ərizə təmin edilmişdir.

Sumqayıt Apelyasiya Məhkəməsi tərəfindən aparılmış ümumiləşdirmə zamanı müəyyən edilmişdir ki, hakim Ç.İsgəndərov tərəfindən xüsusi icraat qaydasında baxılan işlərin bir qismi inzibati məhkəmə icraatının predmeti olmuşdur.

Xüsusilə, əmək pensiyasının təyin edilməsi ilə bağlı işlər üzrə ərizəçilər tərəfindən inzibati orqana edilən müraciətə imtina cavabı verilmiş, bundan sonra hüquqi əhəmiyyətli faktın müəyyən edilməsi ilə bağlı məhkəməyə müraciət edilmişdir. Həmin şəxslərin əmək kitabçalarında və ya onlar tərəfindən təqdim edilən arxiv arayışlarında ərizəçilərin işləməsi faktı, onların aldıqları əmək haqları barədə məlumatların mövcud olmasına baxmayaraq, hakim Ç.İsgəndərov həmin işlərə xüsusi icraat qaydasında baxmışdır. İnzibati orqanların ərizəçilərin müraciətlərinə dair imtina məktubları isə həmin işlərə əlavə edilmişdir.

Belə ki, hakim Çingiz İsgəndərovun sədrliyi ilə baxılmış 6 işdə məhkəmə tələbin inzibati məhkəmə icraatının predmeti olmasına əhəmiyyət verməmiş, həmin tələblə bağlı iş üzrə icraata xitam vermək əvəzinə, ərizəyə mahiyyəti üzrə baxıb həmin tələbi təmin etməklə, prosessual hüquq normalarını pozmuşlar.

Həmçinin, müəyyən edilmişdir ki, Çingiz İsgəndərovun sədrliyi ilə baxılmış 28 iş üzrə qəbul edilmiş məhkəmə aktlarının iş üzrə maraqlı tərəflərə göndərilməsini təsdiq edən sübut iş materiallarında mövcud deyildir.

Hakim Çingiz İsgəndərov intizam icraatı üzrə araşdırma zamanı və Məhkəmə-Hüquq Şurasının iclasında verdiyi izahatında qeyd edilən pozuntuları etiraf etmiş, göstərilən nöqsanlara iş yükünün çoxluğu ilə əlaqədar yol verdiyini, gələcək fəaliyyətində bir daha belə halların təkrarlanmayacağını bildirmişdir.

Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə məruzəçi hakim Rizvan Səfərovun məruzəsini, məsuliyyət məsələsinə baxılan Şabran Rayon Məhkəməsi sədrinin izahatını dinləyib, təqdim olunmuş materialları araşdıraraq belə nəticəyə gəlir ki, Çingiz Əmir oğlu İsgəndərovun fəaliyyətində yol verilmiş çoxsaylı qanun pozuntuları "Məhkəmələr və hakimlər haqqında" Qanunun 111-1 maddəsinə uyğun olaraq onun intizam məsuliyyətinə cəlb edilməsinə əsas verir.

Şərh edilənlərə əsasən və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 19, 21, 23 və 24-cü maddələrini, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1 və 112-ci maddələrini rəhbər tutaraq Məhkəmə -Hüquq Şurasının hakim üzvləri

**QƏRARA ALIR:**

Şabran Rayon Məhkəməsinin sədri Çingiz Əmir oğlu İsgəndərov intizam məsuliyyətinə cəlb edilməklə ona töhmət elan edilsin.

Qərardan 20 gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verilə bilər.

Məhkəmə-Hüquq Şurasının
hakim üzvləri

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

# Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə QƏRARI

Məhkəmə-Hüquq Şurası F.F.Məmmədovun sədrliyi, hakim T.Ş.Mahmudovun məruzəsi və R.Ç.Quliyevanın katibliyi ilə Sumqayıt Şəhər Məhkəməsinin hakimi Mahmudov İlyas Musa oğlu haqqında intizam icraatı üzrə işə baxaraq

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasında olan birinci instansiya məhkəmələrində hüquqi əhəmiyyəti olan faktların müəyyən

edilməsinə dair 2016-2017-ci illərdə baxılmış işlər üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin ümumiləşdirməsi nəticəsində hakim İ.Mahmudov tərəfindən qanunvericiliyin dəfələrlə və kobudcasına pozulması hallarına yol verilməsi aşkar edilmişdir.

Bununla əlaqədar Sumqayıt Apellyasiya Məhkəməsinin sədri göstərilən hakim barədə intizam icraatının başlanması üçün Məhkəmə-Hüquq Şurasına müraciət etmişdir.

Məhkəmə-Hüquq Şurasının 22 oktyabr 2018-ci il tarixli qərarı ilə hakim İ.Mahmudov barədə intizam icraatı başlanılmış və Şuranın üzvü Tapdıq Mahmudov intizam icraatı üzrə məruzəçi təyin olunmuşdur.

İntizam icraatının başlanılmasına əsas olmuş məsələlərlə əlaqədar məruzəçi tərəfindən araşdırma aparılmış, hakim İlyas Mahmudov materiallarla tanış olaraq izahat vermişdir.

Məhkəmə-Hüquq Şurasının iclasında məruzəçi hakimin məruzəsinə və aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edildi ki, İ.Mahmudov fəaliyyətində prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol vermiş, hakim kimi ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı üzərinə düşən vəzifələrin icrasına laqeyd münasibət göstərmiş, baxdığı işlərə bir sıra hallarda formal yanaşmışdır.

Müəyyən edilmişdir ki, əmək stajının və ya işləmə faktının müəyyən edilməsi barədə işlərə baxarkən hakim İ.Mahmudov əsasən şahid ifadələrinə istinad edərək, ərizəni təmin etməklə faktı təsdiq etmişdir. Həmin şahidlərin isə ərizəçi ilə birlikdə işləməsini təsdiq edən sənədlər, yəni onların əmək kitabçasının surəti işə əlavə edilməmiş və ya belə bir sənədinin olması məhkəmə tərəfindən araşdırılmamışdır. İ.Mahmudovun sədrliyi ilə baxılan 72 işdə belə hallar təkrarlanmışdır.

Bundan əlavə müəyyən edilmişdir ki, müxtəlif işlər üzrə eyni şəxsin bir neçə dəfə şahid qismində ifadə verməsinə, ifadələr arasında ziddiyyət olmasına hakim İ.Mahmudov tərəfindən heç bir əhəmiyyət verilməmiş, əksinə həmin şahidlərin ifadəsi əsasında müvafiq qərarlar çıxarılmışdır.

Belə ki, ərizəçi H.Atakişiyevin 1978-ci ildən 1993-cü ilə kimi Zəngilan rayon Kimya birliyində fəhlə işləməsi faktının müəyyən edilməsi barədə iş üzrə şahid Ş.Yusifov həmin tarixlərdə ərizəçi ilə qeyd edilən müəssisədə işlədiyini bildirmiş və İ.Mahmudov həmin ifadəyə əsaslanmaqla ərizəni təmin etmişdir. Hakim İlyas Mahmudovun sədrliyi ilə digər analoji işdə də Ş.Yusifov şahid qismində iştirak etmiş və bu dəfə 1983-cü ildən 1993-cü ilə kimi həmin iş üzrə ərizəçi olan H.Məmmədova ilə birgə Zəngilan rayon 9 nömrəli Dəmiryol idarəsində işlədiyini bildirmişdir.

Eyni zamanda hakim İ.Mahmudovun sədrliyi ilə baxılmış 4 işdə eyni şahid - Məhərrəm Məhərrəmov fərqli ərizəçilərlə müxtəlif müəssisələrdə işlədiyini bildirmiş və onun ifadələri əsasında ərizələr təmin edilmişdir. Başqa bir işdə isə M.Məhərrəmov özü ərizəçi olmuş və onun 02 may 1992-ci ildən 30 dekabr 1992-ci ilə kimi 706 nömrəli hərbi hissənin tərkibində xidmət keçməsi və 1992-ci ilin sentyabr ayında Laçın rayonu istiqamətində gedən döyüşlərdə yaralanması faktının müəyyən edilməsi barədə ərizəsi (ərizə imzalanmadığına baxmayaraq) İ.Mahmudov tərəfindən təmin edilmişdir.

Şahid və ərizəçi qismində işə cəlb olunan M.Məhərrəmovun yuxarıda qeyd edilən ünvanlarda işlədiyini təsdiq edən müvafiq sənədlərin olması İ.Mahmudov tərəfindən araşdırılmamış və iş materiallarına onun izahatını təsdiq edən hər hansı bir sübut əlavə edilməmişdir.

İ.Mahmudov başqa bir iş üzrə ərizəçi N.Baxışovanın əmək stajının mövcudluğu faktını yalnız şahid ifadəsinə əsaslanmaqla təsdiq etmiş, lakin həmin şahidin həqiqətən də qeyd edilən müəssisədə işləməsinə dair iş materiallarına heç bir sənəd əlavə edilməmişdir.

Hakim İ.Mahmudov tərəfindən məhkəmə bildirişlərinin göndərilməsi ilə bağlı qanunvericiliyin tələbləri də dəfələrlə pozulmuşdur. Belə ki, qanunvericiliyə əsasən məhkəmə bildirişi tərəflərə məhkəmə iclasının və ya müvafiq prosessual hərəkətin tarixinə ən azı 10 gün qalmış verilməli olduğu halda hakim İ.Mahmudov bir sıra hallarda hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi ilə bağlı iclasları çox qısa müddətə - 10 gündən az müddətə təyin etməklə qanunvericiliyin həmin tələblərini pozmuşdur.

Məsələn, ərizəçi A.İmanov işləmə faktının müəyyən olunmasına dair ərizə ilə 29.11.2016-cı il tarixdə Sumqayıt Şəhər Məhkəməsinə müraciət etmiş, hakim İ.Mahmudovun sədrliyi ilə məhkəmə hazırlıq iclası 05.12.2016-cı il tarixdə keçirilmiş və 09.12.2016-cı il tarixdə qətnamə qəbul edilmişdir. Beləliklə, mülki işə 10 günə baxılaraq qətnamə qəbul edilmişdir.

Bundan başqa İlyas Mahmudovun sədrliyi ilə 7

belə işə 8-17 gün müddətlərində baxılaraq müvafiq qərarlar qəbul edilmişdir. Hakim İ.Mahmudov tərəfindən qanunvericiliyin tələblərinin pozulması hesabına işlərə belə qısa müddətdə baxılması həmin işlərin formal araşdırılması təəssüratı yaradır.

Həmçinin müəyyən edilmişdir ki, bəzi hallarda ərizəçi tərəfindən məhkəməyə təqdim edilmiş hüquqi əhəmiyyəti olan faktın müəyyən edilməsinə dair ərizə imzalanmasa da, hakim İ.Mahmudov işə baxaraq ərizənin təmin edilməsi barədə qətnamə qəbul etmişdir.

Belə ki, vətəndaş Ə.Əliyevin fəhlə işləməsi faktının müəyyən edilməsi barədə ərizəsi onun tərəfindən imzalanmasa da, hakim İ.Mahmudov həmin ərizəni təmin etmişdir. Bundan başqa 4 iş üzrə də analoji hala yol verilmişdir.

Eyni zamanda hakim İ.Mahmudov tərəfindən işlərə baxılarkən bir sıra hallarda dövlət rüsumunun ödənilməsi ilə bağlı qanunvericiliyin tələbləri də pozulmuşdur. Belə ki, hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi barədə ərizələr verildikdə dövlət rüsumu ödənilməli olduğu halda hakim İ.Mahmudov ərizəyə dövlət rüsumunun ödənilməsini təsdiq edən qəbzin əlavə edilməməsinə əhəmiyyət verməyərək, B.Balakişiyevanın əmək stajının mövcud olması faktının müəyyən edilməsinə dair ərizəsini təmin etmişdir. Belə hal İ.Mahmudovun sədrliyi ilə baxılmış 8 işdə təkrarlanmışdır. Həmçinin, 32 işdə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd işə əlavə edilməsə də iş materiallarında olan məlumata (şəxsiyyət vəsiqəsi) əsasən həmin işlər üzrə ərizəçilərin Azərbaycan Respublikasının işğal olunmuş rayonlarında qeydiyyatda olduğu müəyyən olunur. Lakin ərizəçilərin məcburi köçkün olmasını təsdiq edən sənədin surəti iş materiallarına əlavə edilməmişdir.

Onun tərəfindən işlərə formal münasibət o dərəcəyə çatmışdır ki, ərizəçi İ.Bayramovun 03 sentyabr 1993-cü ildən 27 oktyabr 1993-cü ilə kimi Xüsusi təyinatlı polis dəstəsinin tərkibində və Qubadlı rayonunun müdafiəsində iştirak etməsi faktının müəyyən edilməsi barədə ərizəsi heç bir sübut olmadan təmin edilmişdir. Həmin işin materiallarına isə tamamilə başqa şəxsin - L.Nəcəfquliyevin qeyd edilən dövrdə Xüsusi təyinatlı polis dəstəsinin tərkibində və Qubadlı rayonunun müdafiəsində iştirak etməsinə dair Qubadlı Rayon Polis İdarəsinin arayışı əlavə edilmişdir.

Bəzi hallarda işlərə baxılarkən məhkəməyə aid hüquq haqqında mübahisənin olması müəyyən edilsə də, hakim İ.Mahmudov MPM-in 259.0.10 və 306.4-cü maddələrinin tələblərinə uyğun olaraq ərizənin baxılmamış saxlanılması barədə qərardad çıxarmalı olduğu halda, bunu etməmiş, işə mahiyyəti üzrə baxaraq qətnamə qəbul etmişdir.

Məsələn, ərizəçi L.İsmayılova məhkəməyə müraciət edərək, V.İsmayılovun onun atası olması faktının müəyyən edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmiş, hakim İ.Mahmudov tərəfindən onun ərizəsi təmin edilmişdir. Lakin maraqlı şəxs V.İsmayılovun apelyasiya şikayəti əsasında işə baxılarkən müəyyən edilmişdir ki, maraqlı şəxs tərəfindən məhkəmədə atalıq mübahisələndirilsə də hakim İ.Mahmudov mülki prosessual qanunvericiliyin tələblərini pozaraq, işə xüsusi icraat qaydasında baxaraq qətnamə qəbul etmişdir. Göstərilənlərə əsasən Sumqayıt Apellyasiya Məhkəməsi tərəfindən həmin qətnamə ləğv edilmiş, ərizə baxılmamış saxlanılmışdır.

Ümumiləşdirmə zamanı müəyyən edilmişdir ki, hakim İ.Mahmudov tərəfindən xüsusi icraat qaydasında baxılan işlərin əksəriyyəti inzibati məhkəmə icraatının predmeti olmuşdur.

Xüsusilə, əmək pensiyasının təyin edilməsi ilə bağlı işlər üzrə ərizəçilər tərəfindən inzibati orqana edilən müraciətə imtina cavabı verilmiş, bundan sonra hüquqi əhəmiyyətli faktın müəyyən edilməsi ilə bağlı məhkəməyə müraciət edilmişdir. Həmin şəxslərin əmək kitabçalarında və ya onlar tərəfindən təqdim edilən arxiv arayışlarında ərizəçilərin işləməsi faktı, onların aldıqları əmək haqları barədə məlumatların mövcud olmasına baxmayaraq, hakim İ.Mahmudov həmin işlərə xüsusi icraat qaydasında baxmışdır. İnzibati orqanların ərizəçilərin müraciətlərinə dair imtina məktubları isə həmin işlərə əlavə edilmişdir.

İlyas Mahmudovun sədrliyi ilə baxılmış 13 iş üzrə qeyd edilən pozuntu hallarına rast gəlinmişdir.

Həmçinin müəyyən edilmişdir ki, hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi haqqında 4 işə İlyas Mahmudov tərəfindən qanunvericiliyin tələblərinə zidd olaraq qiyabi icraat qaydasında baxılmışdır.

Əksər hallarda hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi haqqında işlər üzrə məhkəmə aktları iş üzrə tərəflərə, xüsusən də maraqlı tərəfə qanunvericilikdə müəyyən edilmiş

qaydada göndərilməmiş və ya təqdim edilməmişdir (109 iş üzrə qeyd edilən pozuntu aşkar edilmişdir).

Bununla yanaşı hakim İ.Mahmudovun 13.02.2017-ci il tarixli qətnaməsi ilə ərizəçi G.Hüseynovanın əmək stajının olması barədə ərizəsi təmin edilmiş, qətnamədən Dövlət Sosial Müdafiə Fondunun Sumqayıt şəhər şöbəsi tərəfindən verilmiş apellyasiya şikayəti şikayət vermə müddətinin keçməsi ilə əlaqədar geri qaytarılmışdır. Apellyasiya şikayətinin geri qaytarılması haqqında həmin qərardad isə DSMF-nin Sumqayıt şəhər şöbəsinə göndərilməmişdir.

Əslində isə müəyyən edilmişdir ki, həmin iş üzrə maraqlı tərəf qətnaməni aldıqdan 10 gün sonra müddəti ötürmədən apelyasiya şikayət verməsinə baxmayaraq, İ.Mahmudov apelyasiya şikayətinin ötürülməsi qənaətinə gəlmiş və bununla da hüquqların həyata keçirilməsinə süni maneə yaratmışdır.

Eyni pozuntu halına İlyas Mahmudovun sədrliyi ilə baxılmış 2(060)-12021/2017 nömrəli işdə də rast gəlinmişdir.

Yuxarıda qeyd edilən hallara yol verməklə hakim İlyas Mahmudov qanunvericiliyin tələblərini dəfələrlə kobud surətdə pozmuş, habelə qanunvericiliyin yuxarıda göstərilən tələblərini pozmaqla yanaşı proses iştirakçılarının hüquqlarını həyata keçirməsinə süni maneələr də yaratmışdır.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 9.3.12-ci maddəsinə əsasən fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin həyata keçirməsində süni maneələr yaratmaq korrupsiyaya şərait yaradan hüquqpozma sayılır.

İntizam icraatı üzrə araşdırma zamanı və Məhkəmə-Hüquq Şurasının iclasında verdiyi izahatında hakim İlyas Mahmudov qeyd olunan qanun pozuntularına yol verdiyini əsasən etiraf etmiş, bunu iş həcminin çoxluğu ilə əlaqələndirmişdir.

Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə məruzəçi hakim Tapdıq Mahmudovun məruzəsini, məsuliyyət məsələsinə baxılan hakim İlyas Mahmudovun izahatını dinləyib, təqdim olunmuş materialları araşdıraraq belə nəticəyə gəlir ki, İlyas Musa oğlu Mahmudovun fəaliyyətində yol verilmiş qanun pozuntuları "Məhkəmələr və hakimlər haqqında" Qanunun 111-1 maddəsinə uyğun olaraq onun intizam məsuliyyətinə cəlb edilməsinə əsas verir.

Göstərilən Qanunun 111-1-ci maddəsinə əsasən işlərə baxarkən qanunvericiliyin tələblərini dəfələrlə və ya kobudcasına pozması və "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində göstərilən hüquqpozmalar törətməsi hakimləri intizam məsuliyyətinə cəlb edilməsi əsaslarındandır.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 113-cü maddəsinin 11-ci bəndinə əsasən işlərə baxarkən qanunvericiliyin tələblərinin dəfələrlə kobudcasına pozduqda hakimlərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilə bilər. Qeyd olunan qanunun 114-cü maddəsinə əsasən bu Qanunun 113-cü maddəsinin 6-11-ci bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda, hakimlərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri və ya müvafiq icra hakimiyyəti orqanı intizam icraatının başlanılması haqqında Məhkəmə-Hüquq Şurasına müraciət edirlər. Hakimin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında qərar qəbul edildikdə, Məhkəmə-Hüquq Şurası bu barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təklif verir.

Hakim İ.Mahmudov tərəfindən işlərə baxılarkən qanunvericiliyin tələblərinin dəfələrlə kobudcasına pozulması halları intizam icraatı üzrə araşdırma zamanı təsdiq olunduğundan və bununla əlaqədar Ali Məhkəmənin sədrinin "Məhkəmələr və hakimlər haqqında" Qanunun 114-cü maddəsinə əsasən onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə Məhkəmə-Hüquq Şurasına müraciətini nəzərə alaraq, Məhkəmə-Hüquq Şurası bu nəticəyə gəlir ki, Sumqayıt Şəhər Məhkəməsinin hakimi Mahmudov İlyas Musa oğlunun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə qanunvericiliklə müəyyən olunmuş qaydada təklif verilməlidir.

Şərh edilənlərə əsasən və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 19, 21, 23 və 24-cü maddələrini, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111, 111-1, 112-114-cü maddələrini rəhbər tutaraq Məhkəmə-Hüquq Şurasının hakim üzvləri

**Q Ə R A R A A L D I:**

Sumqayıt Şəhər Məhkəməsinin hakimi Mahmudov İlyas Musa oğlu intizam məsuliyyətinə cəlb edilməklə onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidentinə təklif verilsin.

Qərardan 20 gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verilə bilər.

Məhkəmə-Hüquq Şurasının
hakim üzvləri

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

## Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə

# QƏRARI

Məhkəmə-Hüquq Şurası F.F.Məmmədovun sədrliyi, hakim T.Ş.Mahmudovun məruzəsi və R.Ç.Quliyevanın katibliyi ilə Sumqayıt Şəhər Məhkəməsinin sabiq hakimi (hazırda Quba Rayon Məhkəməsinin hakimi) Məmmədov İlqar Aslan oğlunun haqqında intizam icraatı üzrə işə baxaraq

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Apelyasiya Məhkəməsinin yurisdiksiyasında olan birinci instansiya məhkəmələrində hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsinə dair 2016-2017-ci illərdə baxılmış işlər üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin ümumiləşdirməsi nəticəsində hakim İlqar Məmmədov tərəfindən qanunvericiliyin dəfələrlə pozulması hallarına yol verilməsi aşkar edilmişdir.

Bununla əlaqədar Sumqayıt Apelyasiya Məhkəməsinin sədri göstərilən hakim barədə intizam icraatının başlanması üçün Məhkəmə-Hüquq Şurasına müraciət etmişdir.

Məhkəmə-Hüquq Şurasının qərarı ilə hakim İlqar Məmmədov barədə intizam icraatı başlanılmış və Şuranın üzvü Tapdıq Mahmudov intizam icraatı üzrə məruzəçi təyin olunmuşdur.

İntizam icraatının başlanılmasına əsas olmuş məsələlərlə əlaqədar məruzəçi tərəfindən araşdırma aparılmış, hakim İlqar Məmmədov materiallarla tanış olaraq izahat vermişdir.

Məhkəmə-Hüquq Şurasının iclasında məruzəçi hakimin məruzəsinə və aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edildi ki, İ.Məmmədov hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi barədə işlərə baxarkən prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol vermişdir.

Belə ki, işlərin yoxlanılması zamanı müəyyən edilmişdir ki, bəzi hallarda iş materiallarında hüquqi əhəmiyyəti olan faktı təsdiq edən sənədlər mövcud olsa da, həmin fakt hakim İ.Məmmədov tərəfindən yenidən müəyyən edilərək qətnamə qəbul edilmişdir. Halbuki ərizəçinin xahiş etdiyi fakt işə əlavə edilmiş sənədlərlə (əmək kitabçası, arxiv arayışı və s.) təsdiqini tapırsa, həmin faktın yenidən məhkəmə tərəfindən təsdiq edilməsinə ehtiyac yoxdur.

Hakim İlqar Məmmədovun sədrliyi ilə baxılmış 11 iş üzrə qeyd edilən qanun pozuntularına yol verilmişdir.

Hakim İlqar Məmmədovun sədrliyi ilə baxılan bir sıra işlərdə maraqlı şəxs məhkəməyə ərizə verərək apelyasiya şikayətinin əlavə edilmiş sənədlərlə birlikdə geri qaytarılmasını xahiş etsə də, məhkəmə tərəfindən heç bir prosessual hərəkət edilməmiş və həmin ərizəyə münasibət bildirməmişdir.

Belə ki, Sumqayıt Şəhər Məhkəməsinin 29.05.2015-ci il tarixli qətnaməsi ilə ərizə təmin edilərək B.Nuruşovun Sumqayıt şəhəri, Corat qəsəbəsi, 3-cü məhəllə, 2/1 saylı ünvanda yerləşən torpaq sahəsi və fərdi yaşayış evinə mülkiyyət hüququ üzrə daşınmaz əmlaka sahiblik, ondan istifadə etmək və ona sərəncam vermək faktı müəyyən edilmişdir.

Qətnamədən maraqlı şəxs Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 2 saylı Ərazi İdarəsi apellyasiya şikayəti verərək, qətnamənin ləğv edilməsi, ərizənin baxılmamış saxlanılması barədə qərardad çıxarılmasını xahiş etmişdir.

Sonradan maraqlı şəxs məhkəməyə ərizə verərək apelyasiya şikayətinin əlavə edilmiş sənədlərlə birlikdə geri qaytarılmasını xahiş etsə də, heç bir

prosessual hərəkət edilməmiş və həmin ərizəyə münasibət bildirilməmişdir.

Həmçinin, müəyyən edilmişdir ki, hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi haqqında işlərə qiyabi icraat qaydasında baxılması qanunvericiliklə yolverilməz olduğu halda, hakim İlqar Məmmədovun sədrliyi ilə 49 belə mülki işə qiyabi icraat qaydasında baxılaraq qətnamə qəbul edilmişdir.

Bundan başqa əmək stajının və ya işləmə faktının müəyyən edilməsi barədə işlərə baxarkən hakim İ.Məmmədov əsasən şahid ifadələrinə istinad edərək, ərizəni təmin etməklə faktı təsdiq etmiş, lakin şahidlər dindirilərkən tam araşdırma aparılmamışdır. Belə ki, həmin şəxslərin ərizəçi ilə birlikdə işləməsini təsdiq edən sənədlər, yəni onların əmək kitabçasının surəti işə əlavə edilməmiş və ya onların (şahidin) belə bir sənədinin olması məhkəmə tərəfindən araşdırılmamışdır. 9 mülki işdə hakim İ.Məmmədov əsasən şahid ifadəsinə əsaslanmışdır ki, onların da ifadəsini təsdiq edən hər hansı bir sübut müvafiq işə əlavə edilməmişdir.

Bundan başqa ümumiləşdirmə zamanı müəyyən edilmişdir ki, hakim İ.Məmmədov tərəfindən xüsusi icraat qaydasında baxılan işlərin əksəriyyəti inzibati məhkəmə icraatının predmeti olmuşdur.

Xüsusilə, əmək pensiyasının təyin edilməsi ilə bağlı işlər üzrə ərizəçilər tərəfindən inzibati orqana edilən müraciətə imtina cavabı verilmiş, bundan sonra hüquqi əhəmiyyətli faktın müəyyən edilməsi ilə bağlı məhkəməyə müraciət edilmişdir. Halbuki, həmin şəxslərin əmək kitabçalarında və ya onlar tərəfindən təqdim edilən arxiv arayışlarında ərizəçilərin işləməsi faktı, onların aldıqları əmək haqları barədə məlumatlar mövcud olmuşdur. İnzibati orqanların ərizəçilərin müraciətlərinə dair imtina məktubları xüsusi icraat qaydasında baxılan işlərə əlavə edilmişdir.

Həmçinin tələbin inzibati məhkəmə icraatının predmeti olmasına əhəmiyyət verilməmiş, həmin tələblə bağlı iş üzrə icraata xitam vermək əvəzinə, hakim İ.Məmmədov ərizəyə mahiyyəti üzrə baxıb həmin tələbi təmin etməklə, prosessual hüquq normalarını pozmuşdur.

Məsələn, ərizəçi Q.Əsgərov ərizə ilə məhkəməyə müraciət edərək, bacısı 1 iyul 1972-ci ildə Qubadlı rayonunun Sarıyataq kəndində anadan olmuş Q.Əsgərovanın uşaqlıqdan birinci qrup əlil olması faktının müəyyən edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmiş, Qubadlı Rayon Məhkəməsinin 14 fevral 2017-ci il tarixli qiyabi qətnaməsi ilə ərizə təmin edilmişdir.

Halbuki iş materiallarında olan Dövlət Sosial Müdafiə Fondunun Qubadlı rayon şöbəsinin 16 dekabr 2016-cı il tarixli 36/825 nömrəli məktubundan müəyyən olunur ki, Q.Əsgərovanın əlilliyi öz təsdiqini tapmamışdır.

Oxşar pozuntu hallarına hakim İlqar Məmmədovun sədrliyi ilə baxılmış 9 mülki iş üzrə yol verilmişdir.

Qubadlı Rayon Məhkəməsinin hakimi vəzifəsini icra edən İlqar Məmmədovun sədrliyi ilə baxılmış 2(028)-585/2017 nömrəli işdə hüquqi əhəmiyyəti olan faktın müəyyən edilməsi haqqında xüsusi icraat qaydasında baxılan və məhkəmənin qətnaməsinə əsasən təmin edilən ərizə məhkəməyə müraciət edən şəxs (ərizəçi) tərəfindən imzalanmamışdır.

Həmçinin, hakim İlqar Məmmədovun sədrliyi ilə baxılmış 21 işdə qəbul edilmiş məhkəmə aktının iş üzrə maraqlı tərəfə göndərilməsini təsdiq edən sübut iş materiallarında mövcud deyildir.

Yuxarıda qeyd edilən hallara yol verməklə hakim İlqar Məmmədov qanunvericiliyin tələblərini dəfələrlə pozmuşdur.

Hakim İlqar Məmmədov intizam icraatı üzrə araşdırma zamanı və Məhkəmə-Hüquq Şurasının iclasında verdiyi izahatında yol verdiyi pozuntuları etiraf edərək, bunu iş yükünün çoxluğu ilə əlaqələndirmiş, gələcək fəaliyyətində belə hallara yol verməyəcəyini bildirmişdir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 111-1-ci maddəsinə əsasən işlərə baxarkən qanunvericiliyin tələblərini dəfələrlə pozması hakimin intizam məsuliyyətinə cəlb edilməsi əsaslarındandır.

Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə məruzəçi hakim Mahmudov Tapdıq Şükür oğlunun məruzəsini, məsuliyyət məsələsinə baxılan hakim Məmmədov İlqar Aslan oğlunun izahatını dinləyib, təqdim olunmuş materialları araşdıraraq belə nəticəyə gəlir ki, Sumqayıt Şəhər Məhkəməsinin sabiq hakimi (hazırda Quba Rayon Məhkəməsinin hakimi) Məmmədov İlqar Aslan oğlunun fəaliyyətində yol verilmiş qanun pozuntuları "Məhkəmələr və hakimlər haqqında" Qanunun 111-1 maddəsinə uyğun olaraq onun intizam məsuliyyətinə cəlb edilməsinə əsas verir.

Şərh edilənlərə əsasən və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 19, 21, 23 və 24-cü maddələrini, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1 və 112-ci maddələ-

rini rəhbər tutaraq Məhkəmə-Hüquq Şurasının hakim üzvləri

**QƏRARA ALIR:**

Sumqayıt Şəhər Məhkəməsinin sabiq hakimi (hazırda Quba Rayon Məhkəməsinin hakimi) Məmmədov İlqar Aslan oğlu intizam məsuliyyətinə cəlb edilməklə ona töhmət elan edilsin.

Qərardan 20 gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verilə bilər.

Məhkəmə-Hüquq Şurasının
hakim üzvləri

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

# Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə QƏRARI

Məhkəmə-Hüquq Şurası F.F.Məmmədovun sədrliyi, hakim Ş.Y.Yusifovun məruzəsi və R.Ç.Quliyevanın katibliyi ilə Şabran Rayon Məhkəməsinin sabiq hakimi, hazırda Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi Qurbanov Teymur Əhməd oğlunun barəsində intizam icraatı üzrə işlərə baxaraq

**M Ü Ə Y Y Ə N  E T D İ:**

Bakı Apelyasiya Məhkəməsinin sədri Məhkəmə-Hüquq Şurasına müraciət edərək Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi Qurbanov Teymur Əhməd oğlu haqqında intizam icraatının başlanmasını xahiş etmişdir.

Müraciətə edilməsinə səbəb hakim T.Qurbanovun cinayət işinə baxarkən qanunvericiliyin tələblərinin kobud pozuntusuna yol verdiyinə görə onun barəsində çıxarılmış 05 oktyabr 2018-ci il tarixli xüsusi qərar olmuşdur.

Bundan başqa, Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Məhkəmə-Hüquq Şurasına müraciət edərək, Şabran Rayon Məhkəməsinin hakimi vəzifəsində işləmiş T.Ə.Qurbanovun haqqında intizam icraatının başlanmasını xahiş etmişdir.

Müraciət edilməsinə səbəb Sumqayıt Apelyasiya Məhkəməsinin yurisdiksiyasında olan birinci instansiya məhkəmələrində hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsinə dair 2016-2017-ci illərdə baxılmış işlər üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin ümumiləşdirməsi nəticəsində hakim Teymur Qurbanov tərəfindən qanunvericiliyin tələblərinin dəfələrlə pozulması hallarına yol verilməsinin aşkar edilməsi olmuşdur.

Məhkəmə-Hüquq Şurasının müvafiq qərarları ilə hakim T.Ə.Qurbanov barəsində intizam icraatı başlanmış və Şuranın üzvü Ş.Yusifov intizam icraatı üzrə məruzəçi təyin olunmuşdur.

Məhkəmə-Hüquq Şurasının iclasında məruzəçi hakimin məruzəsinə və aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edildi ki, hakim T.Ə.Qurbanov qeyd olunan cinayət işinə və mülki işlərə baxarkən qanunvericiliyin tələblərinin pozulmasına yol vermişdir.

Belə ki, Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 09 avqust 2018-ci il tarixli hökmü ilə (sədrlik edən hakim Teymur Qurbanov) C.İsmayılov Azərbaycan Respublikası CM-nin 234.1-ci maddəsi ilə təqsirli bilinərək, 08 (səkkiz) ay 28 (iyirmi səkkiz) gün müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, onun həbsdə saxlanıldığı müddət nəzərə alınaraq, o, göstərilən hökmlə cəzasını çəkib qurtarmış hesab edilmiş və barəsində seçilmiş həbs qətimkan tədbiri ləğv edilərək, məhkəmə iclas zalında həbsdən azad olunmuşdur.

Həmin hökmdən dövlət ittihamçısı tərəfindən verilmiş apelyasiya protestinə baxılarkən müəyyən edilmişdir ki, əslində C.İsmayılovun hərəkətlərində cinayətin residivinin müəyyən edilməsi və ona residivə görə cəzanın təyin edilməli olması iş üzrə toplanmış sübutlarla təsdiq edilsə də, hakim T.Qurbanov təqsirləndirilən şəxsin məhkumluğunun ödənilməsi haqqında düzgün olmayan nəticəyə gələrək onun hərəkətlərində cəzanı ağırlaşdıran halın - cinayətin residivinin olmasını nəzərə almamışdır.

Bununla da hakim Teymur Qurbanov təqsirləndirilən şəxs barəsində cəza tədbiri seçərkən cinayət qanunvericiliyi normalarının tələblərini

kobudcasına pozaraq sonuncuya yüngüllüyünə görə şəxsiyyətinə uyğun olmayan cəza təyin etmişdir.

Göstərilənlərlə əlaqədar Bakı Apelyasiya Məhkəməsi tərəfindən apelyasiya protesti təmin edilərək, birinci instansiya məhkəməsinin hökmü dəyişdirilmiş, habelə yol verdiyi kobud pozuntuya görə hakim Teymur Qurbanov barədə xüsusi qərar çıxarılmışdır.

Həmçinin intizam icraatı üzrə araşdırma nəticəsində müəyyən edildi ki, hakim Teymur Qurbanov Şabran Rayon Məhkəməsinin hakimi vəzifəsində çalışarkən, hüquqi əhəmiyyətli faktların müəyyən edilməsinə dair mülki işlərə baxarkən mülki-prosessual qanunvericiliyinin tələblərinin dəfələrlə pozulmasına da yol vermişdir.

Belə ki, hakim T.Qurbanovun sədrliyi ilə baxılmış belə işlərin əksəriyyətində heç bir şahid dindirilməmiş və həmin işlər üzrə qətnamələr kifayət etməyən sübutlar əsasında çıxarılmış, o, yalnız ərizəçilərin ifadələrinə və lazımi qaydada təsdiq edilməmiş sənədlərin kserosurətlərinə əsaslanmışdır.

Məsələn, ərizəçi Ə.Yunusova ərizə ilə məhkəməyə müraciət edərək sovxozda işlədiyi dövrlərin əmək kitabçasına yazılmadığını bildirmiş, ona görə də 1977-ci ildən 1997-ci ilə kimi üzümçülük sovxozunda işləməsi faktının müəyyən edilməsini xahiş etmişdir. Şabran Rayon Məhkəməsinin 02 avqust 2016-cı il tarixli qətnaməsi ilə ərizə təmin edilmişdir.

Qətnamədən görünür ki, işə baxan hakim T.Ə.Qurbanov ərizənin təmin edilməsi barədə nəticəyə gələrkən Şabran rayon Dövlət Arxivi tərəfindən verilmiş 25 noyabr 2013-cü il tarixli 293 saylı arxiv çıxarışına əsaslanmışdır ki, həmin sənəd də kserosurət olmaqla lazımi qaydada təsdiq olunmamışdır. Bundan başqa iş materiallarında ərizəçinin üzümçülük sovxozunda işləməsi faktını təsdiq edən başqa sübutlar araşdırılmamışdır.

Eyni pozuntulara hakim T.Ə.Qurbanovun sədrliyi ilə baxılmış daha 56 iş üzrə də yol verilmişdir.

Müəyyən edilmişdir ki, hakim T.Ə.Qurbanov şəxsin müəyyən vaxtda müəyyən şəraitdə vəfat etməsi faktının tanınması barədə işlərə baxarkən də qanunvericiliyin tələblərini pozmuş və belə işlər üzrə lazımi sübutları araşdırmadan, o cümlədən şahidləri dindirmədən məsələ ilə əlaqədar ərizələrin təmin edilməsi barədə qətnamələr çıxarmışdır.

Məsələn, vətəndaş G.Abbasova ərizə ilə məhkəməyə müraciət edərək, 25 fevral 1987-ci ildə anadan olmuş keçmiş əri V.Abbasovun ölmüş elan edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir. Həmin iş üzrə yalnız ərizəçinin izahatına əsaslanmaqla və başqa sübutları araşdırmadan, şahidləri dindirmədən, habelə V.Abbasovun aliment ödəməkdən yayındığına görə beynəlxalq axtarışda olması və onun Azərbaycan Respublikasının dövlət sərhədini keçərək xarici ölkəyə getməsi haqqında məlumatların olmasına baxmayaraq, Şabran Rayon Məhkəməsinin 31 may 2017-ci il tarixli qətnaməsi ilə ərizə təmin edilərək V.Abbasov ölmüş elan edilmişdir. Bundan başqa, V.Abbasovun itkin düşmüş hesab edilməsi barədə də əvvəllər məhkəmə qətnaməsi çıxarılmamışdır.

Hakim T.Ə.Qurbanov tərəfindən eyni pozuntulara həmçinin ölüm faktının müəyyən edilməsinə dair 6 iş üzrə də yol verilmişdir.

Bununla yanaşı, müəyyən edilmişdir ki, mülkiyyət hüququ üzrə daşınmaz əmlaka sahiblik, istifadə və sərəncam vermək faktının müəyyən edilməsi ilə əlaqədar işlərə hakim Teymur Qurbanov tərəfindən baxılarkən də qanunvericiliyin tələbləri pozulmuşdur.

Belə ki, bir sıra hallarda ərizəçilər məhkəmədə iddia qaldıraraq mübahisəli daşınmaz əmlakı alarkən müəyyən səbəblərə görə (əksər hallarda daşınmaz əmlakın hüquq müəyyənedici sənədlərində çatışmazlıq olduğuna və ya həmin sənəd olmadığına görə) alqı-satqı müqaviləsi bağlamadıqlarını, sonradan daşınmaz əmlakı satan şəxsin vəfat etdiyini bildirərək mübahisəli daşınmaz əmlaka sahiblik, istifadə və sərəncam vermək faktının müəyyən edilməsi barədə qətnamə qəbul edilməsini məhkəmədən xahiş etmişlər. İşlərin əksəriyyəti üzrə maraqlı şəxslər işə cəlb edilmədən və onların iştirakları olmadan işlərə baxılıb kifayət etməyən sübutlara əsaslanmış ərizələrin təmin edilməsi haqqında qətnamələr çıxarılmış və nəticədə daşınmaz əmlakın qanuni sahibinin (bəzi hallarda mülkiyyətçisinin) qanunla qorunan hüquq və mənafelərinə zərər vurulmuşdur.

Hakim Teymur Qurbanovun sədrliyi ilə baxılmış 37 mülki işdə belə hallara yol verilmişdir. Bundan başqa onun sədrliyi ilə baxılmış digər 3 iş üzrə isə mübahisəli daşınmaz əmlak satıcının mülkiyyətində olmadığı halda həmin əmlakın alıcıya satılması və əmlak üzərində alıcının sahiblik, istifadə və sərəncam vermək faktının müəyyən edilməsi barədə qətnamələr qəbul edilmişdir.

Bundan başqa hakim Teymur Qurbanov qulluq etmə faktının müəyyən edilməsi və bu əsasla qulluq etmə müddətinin əmək stajına daxil edilməsi barədə 21 iş üzrə ərizəni təmin edərkən qanunvericiliyin tələblərini nəzərə almamış, ərizəçinin qəyyum təyin edilib-edilməməsini araşdırmamış, müvafiq sənədi iş materiallarına əlavə

etməmişdir.

Həmçinin, müəyyən edilmişdir ki, öyrənilmiş işlərin bir hissəsi inzibati məhkəmə icraatının predmeti olmasına baxmayaraq, hakim Teymur Qurbanov bu işlər üzrə ərizələri icraata qəbul edərək baxmış və həmin işlər üzrə qətnamələr çıxarmışdır.

Xüsusilə əmək pensiyasının təyin edilməsi və bunun üçün iş stajı müddətinin nəzərə alınması ilə bağlı vətəndaşların inzibati orqanlara ünvanlanmış ərizələrinə həmin orqanlar tərəfindən imtina cavabı verildikdən sonra bundan narazı qalan vətəndaşlar bu və ya digər təşkilat və müəssisələrdə müəyyən müddətdə işləmələri faktının müəyyən edilməsi haqqında ərizələrlə Şabran Rayon Məhkəməsinə müraciət etmiş və həmin şəxslərin əmək kitabçalarında və ya arxiv arayışlarında mübahisənin predmeti olan faktların əks etdirilməsinə baxmayaraq, hakim Teymur Qurbanov bu ərizələri icraata qəbul edib müəyyən edilmiş faktların bir daha müəyyən edilməsi haqqında qətnamələr çıxarmışdır.

Bununla da hakim Teymur Qurbanov yuxarıda göstərilən məsələyə dair işlər üzrə iddia tələbinin inzibati məhkəmə icraatının predmeti olmasına əhəmiyyət verməmiş, həmin tələblə bağlı iş üzrə icraata xitam vermək əvəzinə, ərizəyə mahiyyəti üzrə baxıb həmin tələbi təmin etməklə, prosessual hüquq normalarını pozmuşdur. Onun sədrliyi ilə baxılmış 27 iş üzrə belə hallara yol verilmişdir.

Qeyd olunanlarla yanaşı həmçinin müəyyən edilmişdir ki, xüsusi icraat qaydasında baxılan 4 iş üzrə ərizə məhkəməyə müraciət edən şəxs (ərizəçi) tərəfindən imzalanmasa da, hakim Teymur Qurbanov tərəfindən icraata qəbul edilərək onlara mahiyyəti üzrə baxılaraq ərizələr təmin edilmişdir.

Eyni zamanda, hakim Teymur Qurbanovun sədrliyi ilə baxılmış 96 iş üzrə qəbul edilmiş yekun məhkəmə aktlarının maraqlı tərəflərə göndərilməsini və ya verilməsini təsdiq edən sənədlər həmin işlərin materiallarında aşkar edilməmişdir.

Bundan başqa müəyyən edilmişdir ki, hakim T.Ə.Qurbanovun sədrliyi ilə baxılmış 6 iş üzrə məhkəmə qətnamələrinin icraya yönəldilməsi təmin olunmamışdır.

Beləliklə, araşdırmanın nəticələri göstərir ki, Bakı şəhəri Şabran Rayon Məhkəməsinin sabiq hakimi, hal hazırda Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi vəzifəsində işləyən Teymur Qurbanov yuxarıda qeyd edilən cinayət işinə və mülki işlərə baxarkən qanunvericiliyin tələblərini dəfələrlə pozmuşdur.

Hakim T.Ə.Qurbanov intizam icraatı üzrə araşdırma zamanı və Məhkəmə-Hüquq Şurasının iclasında verdiyi izahatında yuxarıda göstərilən pozuntulara yol verməsini etiraf edərək bunu onun tərəfindən məhkəmə aparatına lazımi nəzarət etməməsi və işlərə baxarkən diqqətsizlik göstərməsi ilə izah etmiş, bu pozuntuların aradan qaldırılması üçün müvafiq tədbirlər görəcəyini qeyd edərək bir daha belə hallara yol verməyəcəyini bildirmişdir.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1-ci maddəsində hakimin intizam məsuliyyətinə cəlb edilməsi əsaslarından biri kimi onun işlərə baxarkən qanunvericiliyin tələblərini dəfələrlə pozması nəzərdə tutulmuşdur.

Məhkəmə-Hüquq Şurası intizam icraatları üzrə məruzəçi hakim Ş.Yusifovun məruzəsini, məsuliyyət məsələsinə baxılan hakimin izahatını dinləyib, təqdim olunmuş materialları araşdıraraq belə nəticəyə gəlir ki, hakim T.Ə.Qurbanovun Şabran Rayon Məhkəməsinin hakimi kimi fəaliyyət göstərdiyi dövrdə mülki işlərə və Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi kimi cinayət işinə baxarkən qanunvericiliyin tələblərinin dəfələrlə pozulmasına yol verməsi onun intizam məsuliyyətinə cəlb edilməsinə əsas verir.

Şərh edilənlərə əsasən və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 19, 21, 23 və 24-cü maddələrini, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1 və 112-ci maddələrini rəhbər tutaraq Məhkəmə - Hüquq Şurasının hakim üzvləri

**Q Ə R A R A   A L I R:**

Şabran Rayon Məhkəməsinin sabiq hakimi, hal hazırda Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi vəzifəsində işləyən Qurbanov Teymur Əhməd oğlu intizam məsuliyyətinə cəlb edilməklə ona töhmət elan edilsin.

Qərardan 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verilə bilər.

Məhkəmə-Hüquq Şurasının
hakim üzvləri

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

# Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə

# QƏRARI

Məhkəmə-Hüquq Şurası F.F.Məmmədovun sədrliyi, hakim X.Q.Tağıyevin məruzəsi və R.Ç.Quliyevanın katibliyi ilə Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin sabiq hakimi (hazırda Abşeron Rayon Məhkəməsinin hakimi) Həsənov Vaqif İsgəndər oğlu haqqında intizam icraatı üzrə işə baxaraq,

**M Ü Ə Y Y Ə N  E T D İ:**

Bakı Apelyasiya Məhkəməsinin sədri Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin sabiq hakimi (hazırda Abşeron Rayon Məhkəməsinin hakimi) Həsənov Vaqif İsgəndər oğlu haqqında intizam icraatının başlanılması üçün Məhkəmə-Hüquq Şurasına müraciət etmişdir.

Müraciət edilməsinə səbəb hakim V.Həsənovun mülki işə baxarkən qanunvericiliyin tələblərinin kobud pozuntusuna yol verdiyinə görə onun barəsində çıxarılmış 25 sentyabr 2018-ci il tarixli xüsusi qərardad olmuşdur.

Məhkəmə-Hüquq Şurasının qərarı ilə hakim Vaqif Həsənov barəsində intizam icraatı başlanılmış və Şuranın üzvü Xəqani Tağıyev intizam icraatı üzrə məruzəçi təyin olunmuşdur.

İntizam icraatının başlanılmasına əsas olmuş məsələ ilə əlaqədar araşdırma aparılmış, hakim V.Həsənov intizam icraatının materialları ilə tanış olub izahat vermişdir.

Məhkəmə-Hüquq Şurasının iclasında məruzəçi hakimin məruzəsinə və aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edildi ki, hakim Vaqif Həsənov icraatında olmuş mülki işə baxarkən prosessual qanunvericiliyin tələblərini kobud surətdə pozmuşdur.

Belə ki, iş materiallarına əsasən Sabunçu Rayon Məhkəməsinin 01.04.2014-cü il tarixli qətnaməsi üzrə verilmiş icra vərəqəsinə əsasən borclu (cavabdeh) Z.Bədəlovdan cəmi 175.000 ABŞ dolları məbləğində pul tutularaq tələbkar (iddiaçı) A.Həbibova ödənilməlidir.

İş materiallarından görünür ki, iddiaçı A.Həbibovun cavabdeh Z.Bədəlova qarşı iddiası əsasında başlanmış mülki işə baxılan zaman Sabunçu Rayon Məhkəməsi Z.Bədəlovun arvadı N.Bədəlovaya məxsus olan fərdi yaşayış evinin üzərinə iddianı təmin tədbiri olaraq həbs qoymuşdur. Bu mərhələdə müəyyən edilmişdir ki, həmin ev "Azərbaycan Kredit Bankı" ASC-dən alınmış kreditin qaytarılmasının təminatı olaraq Zakir Bədəlov tərəfindən həmin Bankın xeyrinə ipoteka ilə yüklü edilmişdir.

Sabunçu Rayon Məhkəməsinin 01.04.2014-cü il tarixli qətnaməsi əsasında verilmiş icra vərəqəsi icra edilməsi üçün Sabunçu rayon İcra və probasiya şöbəsinə göndərilmiş və onun əsasında icra məmuru tərəfindən məcburi icra hərəkətləri həyata keçirilmişdir. Bundan sonra Bank ərizə ilə Sabunçu Rayon Məhkəməsinə müraciət edərək, həmin evin açıq hərracdan satılması və Z.Bədəlovun Banka olan borcunun ödənilməsi ilə əlaqədar fərdi yaşayış evinin üzərinə məhkəmə qərardadı ilə qoyulmuş həbsin götürülməsini xahiş etmişdir.

Sabunçu Rayon Məhkəməsi Bankın ərizəsinə baxaraq iş üzrə qəbul etdiyi 27.07.2015-ci il tarixli qərardadı ilə ərizəni təmin etmiş, yəni, mübahisəli mənzil üzərindən həbs götürülmüşdür.

Bundan sonra tələbkar A.Həbibov həmin qərardaddan Sabunçu Rayon Məhkəməsinə şikayət verərək, qərardadın ləğv olunmasını xahiş etmiş və Sabunçu Rayon Məhkəməsi iş üzrə qəbul etdiyi 20.11.2017-ci il tarixli qərardadı ilə şikayəti təmin edərək, 27.07.2015-ci il tarixli (həbsin ləğvi barədə) qərardadı ləğv edərək, kreditor Bankın yuxarıda qeyd edilən ərizəsini təmin etməmişdir.

Mülki iş üzrə tərəf olmamış, lakin qəbul edilmiş qərarın onun hüquqlarına toxunduğunu bildirən T.Bədəlova 20.11.2017-ci il tarixli qərardaddan şikayət verərək, onun ləğv olunmasını xahiş etmişdir.

Sabunçu Rayon Məhkəməsi T.Bədəlovanın şikayətinə baxaraq şikayəti təmin etməmiş və baxılması üçün şikayəti mülki işlə birlikdə Bakı Apelyasiya Məhkəməsinə göndərmişdir.

Bakı Apelyasiya Məhkəməsinin Mülki kollegiyası iş üzrə qəbul etdiyi 12.02.2018-ci il tarixli qərardadı ilə T.Bədəlovanın şikayətini qismən təmin etmiş, Sabunçu Rayon Məhkəməsinin 20.11.2017-ci il tarixli qərardadını ləğv edərək,

A.Həbibovun 27.07.2015-ci il tarixli qərardaddan verdiyi şikayətə yenidən baxılması üçün işin Sabunçu Rayon Məhkəməsinə göndərilməsini qərara almış və rayon məhkəməsinin qarşısında müvafiq göstərişlər qoymuşdur.

Lakin, Bakı Apelyasiya Məhkəməsinin 12.02.2018-ci il tarixli qərardadında qeyd olunmuş göstərişlərə baxmayaraq, işə baxmış Sabunçu Rayon Məhkəməsinin hakimi Vaqif Həsənov həmin məhkəmənin 27.07.2015-ci il tarixli qərardadından tələbkar Abdul Həbibovun verdiyi şikayətə baxmalı olduğu halda, ona baxmamış və Bakı Apelyasiya Məhkəməsi tərəfindən artıq ləğv edilmiş 20.11.2017-ci il tarixli qərardaddan Tamara Bədəlovanın verdiyi şikayətə yenidən baxaraq qərardadı qüvvədə saxlamışdır. Nəticədə, Abdul Həbibovun verdiyi şikayət baxılmamış qalmışdır.

Yuxarıda qeyd edilənləri kobud prosessual pozuntu kimi qiymətləndirməklə, Bakı Apelyasiya Məhkəməsi hakim Vaqif Həsənov barədə xüsusi qərardad çıxarmışdır.

Hakim Vaqif Həsənov intizam icraatı üzrə araşdırma zamanı və Məhkəmə-Hüquq Şurasının iclasında verdiyi izahatında qeyd edilənləri etiraf edərək, belə pozuntuya yol verməsini diqqətsizliyi ilə əlaqələndirmiş, gələcək fəaliyyətində bir daha belə hallara yol verməyəcəyini bildirmişdir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 111-1-ci maddəsində hakimin intizam məsuliyyətinə cəlb edilməsi əsasları sırasında işlərə baxarkən qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulması nəzərdə tutulmuşdur.

Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə məruzəçinin məruzəsini, məsuliyyət məsələsinə baxılan Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin sabiq hakimi (hazırda Abşeron Rayon Məhkəməsinin hakimi) Həsənov Vaqif İsgəndər oğlunun izahatını dinləyib, təqdim olunmuş materialları araşdırıb, belə nəticəyə gəlir ki, onun yol verdiyi yuxarıda qeyd edilən kobud qanun pozuntusu intizam məsuliyyətinə cəlb edilməsinə əsas verir.

Şərh edilənlərə əsasən və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 19, 21, 23 və 24-cü maddələrini, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1 və 112-ci maddələrini rəhbər tutaraq, Məhkəmə-Hüquq Şurasının hakim üzvləri

**Q Ə R A R A  A L I R:**

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin sabiq hakimi (hazırda Abşeron Rayon Məhkəməsinin hakimi) Həsənov Vaqif İsgəndər oğlu intizam məsuliyyətinə cəlb edilməklə ona irad tutulsun.

Qərardan 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verilə bilər.

Məhkəmə-Hüquq Şurasının
hakim üzvləri

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

## Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə

# QƏRARI

Məhkəmə-Hüquq Şurası F.F.Məmmədovun sədrliyi, hakim R.S.Qvaladzenin məruzəsi və R.Ç.Quliyevanın katibliyi ilə Sumqayıt Şəhər Məhkəməsinin sabiq hakimi (hazırda Xaçmaz Rayon Məhkəməsinin hakimi) Vladimir Yefimoviç Ruvinovun barəsində intizam icraatı üzrə işə baxaraq

**M Ü Ə Y Y Ə N  E T D İ:**

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti "Qaz İxrac" İdarəsinin nümayəndəsinin şikayəti üzrə aparılmış araşdırma ilə Sumqayıt Şəhər Məhkəməsinin sabiq hakimi V.Ruvinov tərəfindən üzərinə düşən vəzifələrin icrasına laqeyd münasibət bəsləməklə icra intizamının pozulması aşkar olunmuşdur.

Bununla əlaqədar Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həmin hakim barədə intizam icraatının başlanılması üçün Məhkəmə-Hüquq

Şurasına müraciət etmişdir.

Məhkəmə-Hüquq Şurasının qərarı ilə hakim Vladimir Yefimoviç Ruvinov barəsində intizam icraatı başlanılmış və Məhkəmə-Hüquq Şurasının üzvü Rafael Qvaladze məruzəçi təyin olunmuşdur.

İntizam icraatının başlanılmasına əsas olmuş məsələlərlə əlaqədar materiallar araşdırılmış, hakim V.Ruvinov intizam icraatının materialları ilə tanış olub izahat vermişdir.

Məhkəmə-Hüquq Şurasının iclasında məruzəçi hakimin məruzəsinə  və aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edildi ki, Sumqayıt Şəhər Məhkəməsinin sabiq hakimi V.Ruvinov ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan şəraitdə həyata keçirilməsi ilə bağlı üzərinə düşən vəzifələrin icrasına laqeyd münasibət bəsləmiş, bir sıra hallarda fəaliyyətində prosessual qanunvericiliyin tələblərini pozmuşdur.

Belə ki, hakim V.Ruvinov icraatında olan iddiaçı "Qaz İxrac" İdarəsinin cavabdeh X.Alxasova qarşı qaz kəmərinin mühafizə zonasında inşa olunmuş tikililərin sökülməsi tələbinə dair iddia ərizəsi ilə bağlı mülki iş üzrə "Məhkəmələr və hakimlər haqqında" Qanunun, mülki-prosessual qanunvericiliyin və Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə zidd olaraq məhkəmə iclasını xidməti otaqda və xüsusi geyim forması (mantiya) olmadan keçirmiş, 12.04.2018-ci il tarixli qərardadla iddiaçının nümayəndəsinin səlahiyyətini təsdiq edən etibarnamənin müddətinin bitməsi, cavabdehin isə işin mahiyyəti üzrə həll olunmasını tələb etməməsi əsası ilə iddianı baxılmamış saxlamışdır.

Hakim V.Ruvinov məsələyə qeyri-səmimi münasibət bəsləyərək, imzaladığı və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə təqdim etdiyi 12.04.2018-ci il tarixli izahatında məhkəmə iclas protokolunda qeyd edilən prosesi guya məhkəmə iclas zalında keçirməsi və hakimin müşavirə otağından qayıtdıqdan sonra qərardadı elan etməsini göstərmişdir. Bununla, MPM-in protokolun məzmununa dair 271-ci maddəsinin tələbləri pozulmuşdur.

Araşdırma zamanı isə V.Ruvinov etiraf etmişdir ki, məhkəmə iclası məhkəmə iclas zalında deyil, xidməti otağında və xüsusi geyim forması (mantiya) olmadan keçirilmişdir.

Göstərilənlərlə yanaşı, Sumqayıt Şəhər Məhkəməsində 2018-ci ilin may ayında keçirilmiş monitorinq zamanı həmçinin müəyyən edilmişdir ki, hakim V.Ruvinov tərəfindən mülki prosessual qanunvericiliyin tələblərinə əsasən işdə məhkəmə iclasının protokolunun olmamasının və ya imzalanmamasının kobud qanun pozuntusu hesab edilməsinə heç bir əhəmiyyət verilməmiş, onun sədrliyi ilə əmr icraatı qaydasında baxılmış 3 iş üzrə müvafiq olaraq 20.11.2017, 13.02.2018 və 03.04.2018-ci il tarixli məhkəmə iclas protokolları 05.05.2018-c il tarixə kimi ötən 1-5 aydan artıq müddətdə tərtib edilməmişdir.

Seçmə üsulu ilə öyrənilmiş cəmi 2 cinayət işinin hər birində də hakim V.Ruvinov tərəfindən cinayət prosessual qanunvericiliyinin tələblərinin pozulması aşkar edilmişdir.

Belə ki, hakim V.Ruvinovun sədrliyi ilə baxılmış 102/18 və 201/18 nömrəli cinayət işləri üzrə 27.02.18, 29.03.2018, 12.04.2018 və 26.04.2018-ci il tarixli məhkəmə iclas protokolları 05.05.2018-ci il tarixə kimi ötən 10 gün - 2 aydan artıq müddətdə tərtib edilməmiş, habelə 102/18 nömrəli cinayət işi üzrə 30.01.2018, 13.02.2018 və 22.02.2018-ci il tarixli məhkəmə iclas protokolları və 30.01.2018-ci il tarixli təqsirləndirilən şəxsin məhkəməyə verilməsi barədə qərar 05.05.2018-ci il tarixə kimi ötən 2-3 aydan artıq müddət ərzində hakim tərəfindən imzalanmamışdır.

Yuxarıda qeyd edilən hallara yol verməklə hakim Vladimir Ruvinov qanunvericiliyin tələblərini dəfələrlə pozmuşdur.

Hakim Vladimir Ruvinov intizam icraatı üzrə araşdırma zamanı və Məhkəmə-Hüquq Şurasının iclasında verdiyi izahatında qeyd edilən qanun pozuntularına yol verməsini əsasən etiraf etmiş, fəaliyyətində olan çatışmazlığın aradan qaldırdığını bildirmişdir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 111-1-ci maddəsində hakimin intizam məsuliyyətinə cəlb edilməsi əsaslarından biri kimi işlərə baxarkən qanunvericiliyin tələblərinin dəfələrlə pozulması nəzərdə tutulmuşdur.

Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə məruzəçinin məruzəsini, məsuliyyət məsələsinə baxılan hakim Vladimir Yefimoviç Ruvinovun izahatını dinləyib, təqdim olunmuş materialları araşdırıb, belə nəticəyə gəlir ki, onun yol verdiyi

yuxarıda qeyd edilən çoxsaylı qanun pozuntuları intizam məsuliyyətinə cəlb edilməsinə əsas verir.

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 19, 21, 23 və 24-cü maddələrini, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1 və 112-ci maddələrini rəhbər tutaraq Məhkəmə-Hüquq Şurasının hakim üzvləri

**QƏRARA ALDI:**

Sumqayıt Şəhər Məhkəməsinin sabiq hakimi (hazırda Xaçmaz Rayon Məhkəməsinin hakimi) Vladimir Yefimoviç Ruvinov intizam məsuliyyətinə cəlb edilməklə ona töhmət elan edilsin.

Qərardan 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verilə bilər.

Məhkəmə-Hüquq Şurasının
hakim üzvləri

*Bakı şəhəri, 22 fevral 2019-cu il*

## Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə

# QƏRARI

Məhkəmə-Hüquq Şurası F.F.Məmmədovun sədrliyi, hakim R.K.Səfərovun məruzəsi və R.Ç.Quliyevanın katibliyi ilə Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin hakimi Yaşar Xanoğlan oğlu Həşimovun haqqında intizam icraatı üzrə işə baxaraq

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsində işin təşkili, əmək və icra intizamına riayət olunması vəziyyətini öyrənərkən həmin məhkəmənin hakimi Yaşar Xanoğlan oğlu Həşimovun fəaliyyətində dəfələrlə kobud qanun pozuntusuna yol verilməsi halları aşkar olunduğuna görə onun haqqında intizam icraatının başlanılması üçün Məhkəmə-Hüquq Şurasına müraciət etmişdir.

Məhkəmə-Hüquq Şurasının qərarı ilə hakim Yaşar Həşimovun barəsində intizam icraatı başlanılmış və Məhkəmə-Hüquq Şurasının üzvü Rizvan Səfərov intizam icraatı üzrə məruzəçi təyin olunmuşdur.

İntizam icraatının başlanılmasına əsas olmuş məsələ ilə əlaqədar məruzəçi tərəfindən araşdırma aparılmış, hakim Yaşar Həşimov materiallarla tanış olaraq izahat vermişdir.

Məhkəmə-Hüquq Şurasının iclasında məruzəçi hakimin məruzəsinə və aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edildi ki , hakim Yaşar Həşimov mülki prosessual qanunvericiliyin işlərin məhkəmədə baxılmağa hazırlanması qaydalarını nəzərdə tutan müddəalarına riayət etməmiş, iş üzrə yekun məhkəmə aktları çıxarılmış 33 mülki iş üzrə 01 may 2018-ci il tarixə kimi ötən müddət ərzində "işi məhkəmədə baxılmağa hazırlamaq haqqında" qərardadlar tərtib etməmişdir.

Öyrənilmiş cəmi 117 mülkü işin 44-ü və ya təxminən hər üçündən biri üzrə işin məhkəmə baxışına təyin edilməsi üzrə mülki prosessual qanunvericiliyin tələblərinə hakim Yaşar Həşimov tərəfindən əhəmiyyət verilməyərək, yekun məhkəmə aktları qəbul edilməsinə baxmayaraq onların heç biri üzrə "işin məhkəmə iclasında baxılmağa təyin edilməsi haqqında qərardad" tərtib edilməmiş və bununla da onların surətləri tərəflərə göndərilməmişdir.

Hakim Yaşar Həşimovun sədrliyi ilə baxılmış 9 iş üzrə çıxarılmış (elan olunmuş) qətnamələrin

surətləri MPM-in qətnamənin tərtibindən və göndərilməsindən bəhs edən müddəalarının tələblərinə zidd olaraq 01 may 2018-ci il tarixə kimi ötən 4-7 aydan artıq müddət ərzində rəsmi qaydada iş üzrə cavabdeh olan şəxslərə (bir çox hallarda iddiaçılara da) verilməmişdir.

Bundan əlavə, Unibankın R.Nəcəfovdan borcun qaytarılması tələbinə dair mülki iş üzrə 27 dekabr 2017-ci il tarixdə çıxarılmış qətnamə hakim Yaşar Həşimov tərəfindən 01 may 2018-ci il tarixə kimi ötən 4 aydan artıq müddət ərzində imzalanmamış, qanuni qüvvəyə minmə müddəti başa çatmasına baxmayaraq həmin qətnamə icraya yönəldilməmiş, məhkəmə iclasının protokolu da ötən 4 aydan artıq müddət ərzində tərtib olunmamışdır.

Hakim Yaşar Həşimov işdə məhkəmə iclasının protokolunun olmamasının və ya imzalamamasının mülki prosessual qanunvericiliyin kobud pozulması kimi qiymətləndirilməsinə də əhəmiyyət verməmiş, öyrənilmiş 117 mülki işdən 61-i və ya təxminən hər ikisindən biri üzrə yekun məhkəmə aktları çıxarılmasına baxmayaraq 01 may 2018-ci il tarixə kimi ötən 3 ay-1 ildən artıq müddət ərzində həmin mülki işlər üzrə təxminən 120-dən çox məhkəmə iclas protokolları tərtib olunmamışdır.

Nəticədə hakim Yaşar Həşimovun sədrliyi ilə baxılmış çoxsaylı mülki işlər üzrə MPM-in protokolların tərtib edilməsinin və imzalanmasının məcburiliyindən bəhs edən müddəalarının tələblərinin kobud şəkildə pozulması halları kütləvi xarakter almışdır.

Həmçinin, öyrənilmiş 117 mülki işdən 61-i və ya təxminən hər ikisindən biri üzrə "Azərbaycan Respublikası Məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın tələbləri pozularaq işin materialları arxivə təhvil verilməsi üçün səhifələnməmiş, tikilməmiş və mündəricat tərtib edilməmişdir.

Bununla yanaşı, hakim Yaşar Həşimov cinayət prosessual qanunvericiliyin tələblərinin də dəfələrlə pozuntusu hallarına yol vermişdir.

Belə ki, 5 cinayət işi üzrə "təqsirləndirilən şəxslərin məhkəməyə verilməsi və işin məhkəmə baxışına təyin edilməsi haqqında" qərarlar elan olunmasına baxmayaraq həmin qərarlar hakim Yaşar Həşimov tərəfindən 01 may 2018-ci il tarixə kimi ötən 2 ay-1 il 2 aydan artıq müddət ərzində tərtib edilməmiş, imzalanmamış və bununla da onların surətləri proses tərəflərinə göndərilməmişdir.

Hakim Yaşar Həşimovun icraatında olan 4 cinayət işi üzrə CPM-in tələbləri pozularaq məhkəmənin hazırlıq iclaslarının protokolları 01 may 2018-ci il tarixə kimi ötən 2-4 aydan artıq müddət ərzində tərtib edilməmişdir.

Bundan əlavə, 6 cinayət işi üzrə müxtəlif vaxtlarda yekun məhkəmə aktları (hökmlər) çıxarılmasına baxmayaraq 20-dən çox məhkəmə baxışlarının iclas protokolları 01 may 2018-ci il tarixə kimi ötən 2 ay-1 ildən artıq müddət ərzində tərtib edilməmişdir.

Cinayət-prosessual qanunvericiliyin məhkəmə iclası protokolunun imzalanmasına dair tələblərinə zidd olaraq hakim Yaşar Həşimovun sədrliyi ilə 3 cinayət işi üzrə çıxarılmış hökmlər qanuni qüvvəyə minib icraya yönəldilməsinə baxmayaraq məhkəmə baxışlarının 20-dək iclas protokolları hakim və katib tərəfindən 01 may 2018-ci il tarixə kimi ötən 24 gün-7 aydan artıq müddət ərzində imzalanmamışdır.

Hakim Yaşar Həşimovun 07 sentyabr 2017-ci il tarixli qərarı ilə təqsirləndirilən şəxs F.Muxtarov barəsində axtarış elan edilməsinə və cinayət işi üzrə işin icraatın dayandırılmasına, 19 dekabr 2017-ci il tarixdə isə təqsirləndirilən şəxsin iştirakı ilə işin məhkəmə baxışı başlanılmasına baxmayaraq həmin cinayət işinin icraatı təzələnməmişdir. Bundan əlavə, hakimin icraatında olmuş digər cinayət işi üzrə axtarışda olan təqsirləndirilən şəxs R.Musayevin 07 fevral 2018-ci il tarixdə tutulması barədə protokol tərtib edilməsinə baxmayaraq, hakim tərəfindən ötən müddət ərzində bu iş üzrə də icraatın təzələnməsi barəsində qərar çıxarılmamışdır. Bununla da hər iki cinayət işi üzrə icraatın dayandırılması və təzələnməsinə dair qanunvericiliyin tələbləri pozulmuşdur.

Hakim Yaşar Həşimovun icraatında olan müxtəlif növ işlər üzrə məhkəmə bildirişlərinin tərtib

edilməsi və tərəflərə göndərilməsi qaydaları da pozulmuşdur.

Hakim Yaşar Həşimovun sədrliyi ilə baxılmış inzibati xətalar haqqında 40 iş üzrə müvafiq yekun qərarlar çıxarılmasına baxmayaraq 01 may 2018-ci il tarixə kimi ötən 17 gün-3 aydan artıq müddət ərzində qeyd olunan işlər üzrə məhkəmə iclas protokolları tərtib olunmamışdır.

Həmçinin Ədliyyə Nazirliyinə daxil olmuş şikayətlər üzrə aparılmış araşdırmalarla hakim Yaşar Həşimov tərəfindən digər pozuntulara da yol verilməsi, vətəndaşların hüquqlarının həyata keçirilməsinə süni maneələr yaradılması müəyyən edilmişdir.

Belə ki, hakim Yaşar Həşimovun sədrliyi ilə baxılan torpaq mübahisəsinə dair mülki iş üzrə 23.01.2018-ci il tarixli məhkəmə qətnaməsi cavabdeh T.Tağıyevə 2 aydan artıq müddət keçdikdən sonra göndərilmiş, həmçinin qeyd edilən işə qanunla müəyyən olunmuş müddət pozulmaqla - 5 ay 11 gün müddətində baxılmışdır.

Yuxarıda qeyd edilən hallara yol verməklə hakim Yaşar Həşimov qanunvericiliyin tələblərini dəfələrlə pozmuş, habelə qanunvericiliyin yuxarıda göstərilən tələblərini pozmaqla yanaşı, proses iştirakçılarının hüquqlarının həyata keçirilməsinə süni maneələr də yaratmışdır.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 9.3.12-ci maddəsinə əsasən fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin həyata keçirməsində süni maneələr yaratmaq korrupsiyaya şərait yaradan hüquqpozma sayılır.

Hakim Yaşar Həşimov izahatında yuxarıda göstərilən pozuntulara yol verməsini etiraf edərək bunu iş yükünün çoxluğu, habelə tərəfindən hakim köməkçisinin və məhkəmə iclas katibinin fəaliyyətlərinə lazımi nəzarət edilməməsi ilə izah etmişdir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 111-1-ci maddəsinə əsasən əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulması və "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində göstərilən hüquqpozmaların törədilməsi hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi əsaslarındandır.

Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə məruzəçi hakim Rizvan Səfərovun məruzəsini, məsuliyyət məsələsinə baxılan hakimin izahatını dinləyib, təqdim olunmuş materialları araşdıraraq belə nəticəyə gəlir ki, hakim Yaşar Həşimovun işlərə baxarkən yol verdiyi yuxarıda qeyd edilən qanun pozuntuları onun intizam məsuliyyətinə cəlb edilməsinə əsas verir.

Bununla yanaşı, yol verilmiş pozuntuların xarakterini, belə pozuntulara yol verilməsinin iş həcminin çoxluğu ilə əsaslandırılmasını nəzərə alaraq, hakim Yaşar Həşimovun iş həcmi daha az olan məhkəmədə hakim kimi fəaliyyətini davam etdirməsi məqsədəuyğun hesab edilir.

Şərh edilənlərə əsasən və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 19, 21, 23 və 24-cü maddələrini, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1 və 112-ci maddələrini rəhbər tutaraq Məhkəmə - Hüquq Şurasının hakim üzvləri

**Q Ə R A R A A L I R:**

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin hakimi Həşimov Yaşar Xanoğlan oğlu intizam məsuliyyətinə cəlb edilməklə onun iş yerinin dəyişdirilməsi barədə qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidentinə təklif verilsin.

Qərardan 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verilə bilər.

Məhkəmə-Hüquq Şurasının
hakim üzvləri

*Bakı şəhəri, 25 fevral 2019-cu il*

# Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə QƏRARI

Məhkəmə-Hüquq Şurası F.F.Məmmədovun sədrliyi, hakim X.Q.Tağıyevin məruzəsi və R.Ç.Quliyevanın katibliyi ilə Abşeron Rayon Məhkəməsinin hakimi Quliyeva Sevinc Məhəmməd qızı haqqında intizam icraatı üzrə işə baxaraq,

**M Ü Ə Y Y Ə N  E T D İ:**

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Abşeron Rayon Məhkəməsinin hakimi Quliyeva Sevinc Məhəmməd qızı haqqında intizam icraatının başlanılması üçün Məhkəmə-Hüquq Şurasına müraciət etmişdir.

Müraciət edilməsinə səbəb Sumqayıt Apelyasiya Məhkəməsinin yurisdiksiyasında olan birinci instansiya məhkəmələrində hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsinə dair 2016-2017-ci illərdə baxılmış işlər üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin ümumiləşdirməsi nəticəsində hakim Sevinc Quliyeva tərəfindən qanunvericiliyin tələblərinin dəfələrlə pozulması hallarına yol verilməsinin aşkar edilməsi olmuşdur.

Məhkəmə-Hüquq Şurasının qərarı ilə hakim Sevinc Quliyeva barəsində intizam icraatı başlanılmış və Şuranın üzvü Xəqani Tağıyev intizam icraatı üzrə məruzəçi təyin olunmuşdur.

İntizam icraatının başlanılmasına əsas olmuş məsələlərlə əlaqədar materiallar araşdırılmış, hakim S.Quliyeva intizam icraatının materialları ilə tanış olub izahat vermişdir.

Məhkəmə-Hüquq Şurasının iclasında məruzəçi hakimin məruzəsinə və aparılmış araşdırmanın nəticələrinə əsasən müəyyən edildi ki, hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsinə dair işlərə baxılması ilə əlaqədar hakim Sevinc Quliyevanın fəaliyyətində nöqsanlara yol verilmiş, maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir.

Belə ki, qanunvericiliyə əsasən xüsusi icraat qaydasında ər-arvadın faktiki nikah münasibətlərində olma faktının yalnız 1944-cü ilin iyulun 8-dən qabaq başlanıb, ər-arvadın birinin vəfatına qədər davam etdiyi hallarda mümkün olmasına baxmayaraq, hakim Sevinc Quliyeva 25.05.2016-cı il tarixli qətnamə ilə V.Quliyeva ilə L.Axundzadənin 1987-ci ildən faktiki nikah münasibətlərində olma faktını müəyyən etmişdir.

Hakim Sevinc Quliyeva 25.04.2016-cı il tarixli qətnamə ilə Abşeron rayonu, Ceyranbatan qəsəbəsində inşa edilmiş dövlət orqanları tərəfindən təhvil alınmayan və dövlət reyestrində qeydə alınmayan binanın ümumi sahəsi 363 kv.metr olan izolə olunmuş qeyri-yaşayış sahəsinə B.Salmanovun sahiblik, istifadə və sərəncam vermək faktını müəyyən etsə də, maraqlı şəxs E.Rzayevin apelyasiya şikayəti əsasında həmin qətnamə ləğv edilmiş, ərizəçi B.Salmanovun hüquqi əhəmiyyəti olan faktın müəyyən edilməsi barədə ərizəsi baxılmamış saxlanılmışdır.

Apelyasiya məhkəməsinin qərardadında qeyd edilir ki, ərizəçinin xahişi itirilmiş sənədin yenidən bərpa edilməsi və ya həmin sənədi başqa qaydada ala bilməməsi ilə əlaqədar olmamış, əslində mülkiyyət hüququnun təsdiq edilməsi və buna dair müvafiq sənədin əldə edilməsindən ibarət olmuşdur. Bu halda ərizənin xüsusi icraat qaydasında baxılaraq təmin edilməsi prosessual hüquq normalarının pozuntusuna gətirib çıxarmışdır.

Hakim S.Quliyevanın sədrliyi ilə baxılmış digər bir iş üzrə iş materiallarında hüquqi əhəmiyyəti olan faktı təsdiq edən sənədlər mövcud olmasına baxmayaraq, vətəndaş V.Mehdiyevin ərizəsi əsasında onun oğlunun ölüm faktı yenidən

məhkəmə tərəfindən müəyyən edilmişdir. Oxşar hala hakim Sevinc Quliyevanın sədrliyi ilə baxılmış 2(012)-3061/2017 nömrəli işdə də rast gəlinmişdir.

Sevinc Quliyevanın sədrliyi ilə baxılmış 2(012)-8950/2017 nömrəli işdə isə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd işə əlavə edilməmişdir.

Hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsinə dair xüsusi icraat qaydasında hakim Sevinc Quliyevanın sədrliyi ilə baxılmış işlər üzrə qəbul edilmiş 9 məhkəmə aktının iş üzrə maraqlı tərəfə göndərilməsini təsdiq edən sübut iş materiallarında yoxdur.

Yuxarıda qeyd edilən hallara yol verməklə hakim Sevinc Quliyeva hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi barədə işlərə baxarkən qanunvericiliyin tələblərini dəfələrlə pozmuşdur.

Hakim Sevinc Quliyeva intizam icraatı üzrə araşdırma zamanı və Məhkəmə-Hüquq Şurasının iclasında verdiyi izahatında qeyd edilən pozuntuları etiraf edərək onlarla razılaşmış, göstərilən nöqsanlara iş yükünün çoxluğu və müəyyən hallarda diqqətsizliyi nəticəsində yol verdiyini, gələcək fəaliyyətində bir daha belə halların təkrarlanmayacağını bildirmişdir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 111-1-ci maddəsində hakimin intizam məsuliyyətinə cəlb edilməsi əsaslarından biri kimi işlərə baxarkən qanunvericiliyin tələblərinin dəfələrlə pozulması nəzərdə tutulmuşdur.

Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə məruzəçinin məruzəsini, məsuliyyət məsələsinə baxılan hakim Sevinc Məhəmməd qızı Quliyevanın izahatını dinləyib, təqdim olunmuş materialları araşdırıb, belə nəticəyə gəlir ki, onun yol verdiyi yuxarıda qeyd edilən çoxsaylı qanun pozuntuları intizam məsuliyyətinə cəlb edilməsinə əsas verir.

Şərh edilənlərə əsasən və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 19, 21, 23 və 24-cü maddələrini, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1 və 112-ci maddələrini rəhbər tutaraq, Məhkəmə-Hüquq Şurasının hakim üzvləri

**Q Ə R A R A A L I R:**

Abşeron Rayon Məhkəməsinin hakimi Quliyeva Sevinc Məhəmməd qızı intizam məsuliyyətinə cəlb edilməklə ona töhmət elan edilsin.

Qərardan 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verilə bilər.

Məhkəmə-Hüquq Şurasının
hakim üzvləri

*Bakı şəhəri, 25 fevral 2019-cu il*

# Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə QƏRARI

Məhkəmə-Hüquq Şurası F.F.Məmmədovun sədrliyi, hakim X.Q.Tağıyevin məruzəsi və R.Ç.Quliyevanın katibliyi ilə Mingəçevir şəhər Məhkəməsinin hakimi Hüseynov Ələkbər Məmmədtağı oğlu haqqında intizam icraatı üzrə işə baxaraq,

**M Ü Ə Y Y Ə N E T D İ:**

Şəki Apelyasiya Məhkəməsinin sədri Mingəçevir şəhər Məhkəməsinin hakimi Hüseynov Ələkbər Məmmədtağı oğlu haqqında intizam icraatının başlanılması üçün Məhkəmə-Hüquq Şurasına

müraciət etmişdir.

Müraciət edilməsinə səbəb hakim Ə.-Hüseynovun cinayət işinə baxarkən qanunvericiliyin tələblərinin kobud pozuntusuna yol verdiyinə görə onun barəsində çıxarılmış 03 iyul 2018-ci il tarixli xüsusi qərar olmuşdur.

Məhkəmə-Hüquq Şurasının qərarı ilə hakim Ələkbər Hüseynov barəsində intizam icraatı başlanılmış və Şuranın üzvü Xəqani Tağıyev intizam icraatı üzrə məruzəçi təyin olunmuşdur.

İntizam icraatının başlanılmasına əsas olmuş məsələ ilə əlaqədar araşdırma aparılmış, hakim Ə.Hüseynov intizam icraatının materialları ilə tanış olub izahat vermişdir.

Müəyyən edilmişdir ki, Mingəçevir Şəhər Məhkəməsinin 09 mart  2018-ci il tarixli hökmü ilə Ə.Yusifov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinib, 1 (bir) il 2 (iki) ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, 09 yanvar 2017-ci il tarixdən həbsdə və ev dustaqlığında saxlanıldığı 1 (bir) il 2 (iki) ay müddət ona təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının müddətinə hesablanmış və cəzası çəkilmiş hesab edilmişdir.

Hökmdən narazı qalan təqsirləndirilən şəxs Ə.Yusifovun apelyasiya şikayəti əsasında Mingəçevir Şəhər Məhkəməsinin 09 mart 2018-ci il tarixli hökmü ləğv edilərək, ona bəraət verilmişdir.

İşə apelyasiya məhkəməsində baxılarkən müəyyən edilmişdir ki, Ə.Yusifov barəsində olan cinayət işinin ibtidai araşdırılması zamanı kobud prosessual pozuntulara yol verilmiş, ittiham mümkün hesab edilə bilməyən və qeyri-mötəbər sübutlarla əsaslandırılmış, birinci instansiya məhkəməsi də bu səhvləri aradan qaldırmağa çalışmamış və sonda Ə.Yusifov barəsində ittiham hökmü çıxarmışdır.

Məhkəmə kollegiyası hesab etmişdir ki, hakim Ələkbər Hüseynov cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılmasına dair prosessual qanunvericiliyin tələblərini açıqdan-açığa pozaraq, Ə.Yusifovun təqsirliliyi barədə düzgün olmayan nəticəyə gəlmiş, müdafiə tərəfinin təqsirləndirilən şəxsin bilavasitə müdafiəsi üçün göstərdiyi dəlilləri tədqiq edərək onlara hüquqi qiymət verməmiş, bu dəlilləri nəyə görə əsassız hesab etməsini qəbul etdiyi qərarında göstərməmiş, hansı əsaslara görə belə nəticəyə gəldiyini şərh etməmişdir.

Bununla da birinci instansiya məhkəməsinin hakimi cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipindən bəhs edən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 28-ci maddəsinin tələblərini pozmuşdur.

Belə ki, müəyyən edilmişdir ki, həmin iş üzrə Ə.Yusifovun üzərinə baxış keçirilməsində, şəxsi axtarış və götürmə barədə protokolun tərtib edilməsində iştirak etmiş hal şahidləri cinayət prosesində şəxsi maraqları olan, uzun müddət ərzində polislə əməkdaşlıq edən şəxslər olmuşlar. Belə ki, həmin şəxslər əksəriyyəti CM-nin 234.1-ci maddəsi ilə başlanılmış cinayət işləri olmaqla, 2016-cı ilin ikinci yarısında 17 dəfə, 2017-ci il ərzində isə birlikdə və ayrılıqda olmaqla 35 cinayət işi üzrə hal şahidliyi etmişlər. Qeyd edilən halın aşkar edilməsi məqsədilə birinci instansiya məhkəməsində icraat zamanı təqsirləndirilən şəxsin müdafiəçisi E.Quliyevin müvafiq vəsatəti işə əlavə olunsa da, həmin vəsatət işə baxan hakim tərəfindən ümumiyyətlə müzakirə olunmamış, həmin hal şahidlərinin ifadələri mötəbər sübut kimi qəbul edilməklə təqsirləndirilən şəxs barəsində ittiham hökmü çıxarılmışdır.

Bundan başqa əldə edilmiş dəlillər, o cümlədən telefon zənglərinin və onların anten əhatə dairəsi üzrə məlumatlar nəticəsində Ə.Yusifovun ətrafında təxirə salınmaz əməliyyat-axtarış tədbirini keçirmiş əməliyyat müvəkkillərinin 09.01.2017-ci il tarixdə həqiqətən qeyd olunmuş vaxtda hal şahidlərinin iştirakı ilə təqsirləndirilən şəxsin üzərinə baxış keçirməsi, şəxsi axtarış və götürmə barədə protokolu tərtib etməsinin mümkünlüyü təkzib

edilmişdir.

Həmçinin, məhkəmə kollegiyası hesab etmişdir ki, cinayət işində mövcud olan istintaq hərəkətlərinə dair protokollar qeydiyyatdan keçirilmədiyindən, məhkəmə qanunsuz olaraq həmin protokollara sübut kimi qiymət vermiş və hökm çıxarılarkən həmin protokollara əsaslanmışdır.

Digər tərəfdən, cinayət işi araşdırılarkən o da müəyyən olunmuşdur ki, təqsirləndirilən şəxslər Q.Qasımov və Ə.Yusifovun CM-in 234.1-ci maddəsi ilə təqsirləndirilmələrinə dair cinayət işləri Mingəçevir Şəhər Məhkəməsinin icraatında olmuş və hər iki cinayət işində verilmiş ittihamı təsdiq edən sübutlar eyni olsa da, hökm çıxarılarkən eyni sübutların qiymətləndirilməsində müxtəlif yanaşmalar nümayiş etdirilmiş, təqsirləndirilən şəxs Q.Qasımova ittiham olunduğu CM-in 234.1-ci maddəsi ilə bəraət verilmiş, digər təqsirləndirilən şəxs Ə.Yusifov barədə isə ittiham hökmü çıxarılmışdır.

Apelyasiya məhkəməsinin qənaətinə görə hakim Ələkbər Hüseynov şərh edilən iş üzrə təqsirləndirilən şəxsin hüquqlarının əhəmiyyətli dərəcədə pozulmasına səbəb olan kobud prosessual pozuntulara yol verdiyindən onun barəsində xüsusi qərar çıxarılmışdır.

Hakim Ələkbər Hüseynov intizam icraatı üzrə araşdırma zamanı və Məhkəmə-Hüquq Şurasının iclasında verdiyi izahatında qeyd edilən kobud pozuntuları etiraf edərək gələcəkdə bir daha belə hallara yol verməyəcəyini bildirmişdir.

Məhkəmələr və hakimlər haqqında" Qanunun 111-1-ci maddəsində hakimin intizam məsuliyyətinə cəlb edilməsi əsasları sırasında işlərə baxarkən qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulması nəzərdə tutulmuşdur.

Məhkəmə-Hüquq Şurası intizam icraatı üzrə məruzəçinin məruzəsini, məsuliyyət məsələsinə baxılan Mingəçevir Şəhər Məhkəməsinin hakimi Hüseynov Ələkbər Məmmədtağı oğlunun izahatını dinləyib, təqdim olunmuş materialları araşdırıb, belə nəticəyə gəlir ki, onun yol verdiyi yuxarıda qeyd edilən kobud qanun pozuntuları intizam məsuliyyətinə cəlb edilməsinə əsas verir.

Şərh edilənlərə əsasən və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 19, 21, 23 və 24-cü maddələrini, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 111-1 və 112-ci maddələrini rəhbər tutaraq, Məhkəmə-Hüquq Şurasının hakim üzvləri

**Q Ə R A R A  A L I R:**

Mingəçevir şəhər Məhkəməsinin hakimi Hüseynov Ələkbər Məmmədtağı oğlu intizam məsuliyyətinə cəlb edilməklə ona töhmət elan edilsin.

Qərardan 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna şikayət verilə bilər.

Məhkəmə-Hüquq Şurasının
hakim üzvləri

*Bakı şəhəri, 25 fevral 2019-cu il*